

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Sağlam gələcəyin sağlam gəncliyi



5

SƏS

№ 240 (7165)

27 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik

# Uğurla davam edən sosial dəstək



2

**Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 16 minədək mənzil və fərdi ev təqdim olunub**

# Suriya:

## YAXIN ŞƏRQİN AÇARI




3

### Yeni İldə uşaqlara nə hədiyyə edək?



6

### Boşanmalar ailə institutuna necə təsir göstərir?



13

### Təhlükə anında özünümüdafiə: bacarırıqmı?



15

### "Elektron nəqliyyatlar ekologiyanın dostudur"



16

### Alın yazısı: gerçək və təəssüf



9

# Uğurla davam edən sosial dəstək

## Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 16 minədək mənzil və fərdi ev təqdim olunub







Azərbaycan Prezidenti İlham Əliyevin siyasətinin mərkəzində ölkə vətəndaşı, onun rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ötən 21 ildə ölkəmiz güclü sosial siyasətə malik dövlət olaraq böyük inkişaf yolu keçib. Azərbaycan vətəndaşının maraqlarının, həyat səviyyəsinin keyfiyyətinin yüksədilməsi əsas hədəflərdən biri olaraq qarşıya qoyulmuşdur. Dövlətimizin başçısı ölkəyə rəhbərliyi dövründə hər bir azərbaycanlının Prezidenti olmağı bacardı. "Sosial sahədə görülmüş işlər də göz qabağındadır. 2003-cü ildə bizim minimum əməkhaqqı, - bəlkə də çoxlarının yadında deyil, - 9 manat idi. İndi 345 manatdır. Əlbəttə ki, bu da yetərli deyil, ancaq dinamika var və dinamika davam edəcək. Minimum pensiya 2003-cü ildə 20 manat idi. Bu gün 280 manata çatıb. Orta pensiya 500 manatdan çoxdur. Orta əməkhaqqı 940 manatdır. Əlbəttə ki, yenə də deyirəm, bu, bizi qane edə bilməz". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev andiçmə mərasimində nitq söyləyərkən bildirmişdi. Ölkəmizdə son 21 il ərzində bütün sahələrdə olduğu kimi, sosial sahədə də sistemli və kompleks islahatların həyata keçirilməsi təmin edilib. Həyata keçirilən tədbirlər Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir. Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir.

23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.

### "YOXSULLUQ AZƏRBAYCANDA 5 FAİZ SƏVİYYƏSİNDƏDİR"

"Biz əlbəttə ki, yoxsulluqla bağlı və işsizliklə bağlı öz fəaliyyətimizi davam etdirməliyik. Yoxsulluq Azərbaycanda 5 faiz səviyyəsindədir. 2003-cü ildə təxminən 50 faiz idi. İşsizliklə bağlı daim işlər aparılmalıdır ki, işsizlik aşağı səviyyədə olsun" - deyən Prezident bildirib ki, müstəqillik dövründə əhalimiz 3 milyon artıb və artan əhalisi olan ölkələrdə işsizlik bir qayda olaraq ciddi problemdir, o cümlədən bizim üçün:"Biz hər il 10 minlərlə yeni iş yeri yaratmalıyıq. Bunun üçün əlbəttə ki, daxili resurslar kifayət deyil. Xarici sərmayəyə ehtiyac var və iqtisadi islahatlar, o cümlədən biznes mühitinin yaxşılaşdırılması, rəqabətlə bağlı, inhisarçılığa qarşı olan tədbirlər bu biznes mühitini yaxşılaşdıracaq. Əlbəttə ki, Qarabağ və Şərqi Zəngəzur bizim iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaqdır. O bölgələrdə həm kənd təsərrüfatı, həm bərpaolunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcəkdir".

2020-ci il sentyabrın 27-də isə Ermənistanın ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu uğurlu hərbi əməliyyatlarla cəmi 44 gün ərzində möhtəşəm tarixi Zəfər əldə etdi. Beynəlxalq səviyyədə tanınan ərazilərimiz Ermənistanın 30 ilə yaxın davam edən işğalından azad olundu. Tarixi Zəfərimizlə yekunlaşan 44 günlük Vətən müharibəsindən sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların mənzil və fərdi evlə təminatı işləri də aparılır. Prezident İlham Əliyevin tapşırığı ilə bu proqram daim genişlənir, postmüharibə dövründə isə 5 dəfə genişlənib. Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin sosial müdafiəsinin ölkə Prezidentinin daim diqqət mərkəzində olduğunu və onların yüksək qayğı ilə əhatə olunduqlarını bir daha göstərir. "Müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial müdafiəsi və sosial təminatı ilə bağlı tədbirlərin dövlət icbari şəxsi sığorta vəsaiti hesabına maliyyələşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli 3493 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Sərəncam həmin maliyyələşdirmə müddətinin uzadılmasını nəzərdə tutur. Bu məqsədlə əvvəlki Sərəncamın 1- ci hissəsindəki "2022-ci və 2023-cü" sözləri "2022-2025-ci" sözləri ilə əvəz edilib.

### "SOSİAL SAHƏDƏ VACİB



### MƏSƏLƏLƏRDƏN BİRİ ŞƏHİD AİLƏLƏRİNİN VƏ MÜHARİBƏ ƏLİLLƏRİNİN SOSİAL MÜDAFİƏSİDİR"

Müzəffər Ali Baş Komandan İlham Əliyev həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərir. Onların sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar reallaşır. 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırığına əsasən, şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı genişmiqyaslı sosial dəstək paketi icra olunur. "Sosial sahədə vacib məsələlərdən biri şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsidir" - deyən Prezident bildirib. 44 günlük Vətən müharibəsindən sonra şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların məşğulluğuna dəstək işləri də aparılır.

### DAHA 150 MƏNZİL VERİLDİ

Dekabrın 24-də şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə daha 150 mənzil təqdim edilib. Həmçinin daha 33 avtomobil verilməklə, növbədə dayanan bütün müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı başa çatdırıldı. Mənzillər Bakı, Sumqayıt, Abşeron və digər regionlarda yerləşən yeni yaşayış komplekslərində yerləşir. Prezident İlham Əliyevin şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə xüsusi qayğısı nəticəsində həmin kateqoriyalara aid vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bu istiqamətdə aparılan işlərin bir istiqaməti də onların mənzil və fərdi evlərlə təminatıdır. Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə ötən əsrin 90-cı illərində başlanılan proqram ildən-ilə uğurla davam etdirilir. Daha 150 mənzil verilməklə cari ilin ötən dövründə artıq 650 mənzil təqdim edilib və bu həftə daha 150 mənzil veriləcək. Beləliklə, postmüharibə dövründə 6800-dək, ümumilikdə ötən dövrdə 16 minədək mənzil və fərdi ev şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə təqdim olunub.

### POSTMÜHARİBƏ DÖVRÜNDƏ 567, ÜMUMƏN 7,7 MİN AVTOMOBİL VERİLİB

Həmçinin daha 33 avtomobil verilməklə, növbədə dayanan bütün müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatı başa çatmış oldu. Bu kateqoriyaya aid şəxslərə postmüharibə dövründə 567, ümumən 7,7 min avtomobil verilib. Bu gün Azərbaycan dünyanın ən müasir və inkişaf etmiş ölkələri sırasındadır. Hətta Azərbaycan siyasi və iqtisadi çəkisinə görə dünyanın ən nəhəng ölkələri ilə müqayisə olunacaq dərəcədə işlər görüb. Təbii ki, bu işlərin də müəllifi, həyata keçirən Azərbaycan Prezidenti İlham Əliyevdir. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasəti sosialyönümlüdür. Bunun mərkəzində Azərbaycan vətəndaşı dayanır.

*Zümrüd BAYRAMOVA*



## Misir Prezidenti təyyarə qəzasına görə Azərbaycan Prezidentinə başsağlığı verib

Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah əs-Sisi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə başsağlığı məktubu göndərib. Misir Səfirliyindən "Səs" qəzetinə verilən məlumata görə, məktubda Zati-aliləri "Azərbaycan Hava Yolları"na məxsus sərnişin təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Azərbaycan rəhbərliyinə və xalqına başsağlığı verdiyini bildirərək, Uca Tanrıdan həlak olanlara rəhmət, onların ailələrinə səbr və təsəlli diləyərək, yaralılara Allahdan tezliklə şəfa verməsini diləmişdir.

Səfirlikdən qəzetimizə bildirilib ki, Misir Ərəb Respublikası hökuməti və xalqı "Azərbaycan Hava Yolları"na məxsus Bakı- Qroznu marşurutu ilə hərəkət edən sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxlu sayda insan tələfatı və yaralanması ilə əlaqədar olaraq, həlak olanlara görə dərindən kədərləndiyini bildirərək dost Azərbaycan Respublikasına başsağlığı verir, yaralılara şəfa diləyir və bu ağrılı gündə Azərbaycan Respublikasının yanında olduğunu bildirir.

# Suriya:

# YAXIN ŞƏRQİN AÇARI

***Suriyada son günlər baş verən hadisələr, əlbəttə ki, hələ də dərin və diqqətli şəkildə təhlil tələb edir. Nəzərə almaq lazımdır ki, bu ərəb ölkəsindəki vəziyyətə Fransanın mandatının başa çatmasından və ölkənin müstəqillik əldə etməsindən sonrakı siyasi dinamikanı nəzərə almaqla, mütləq ümumi kontekstdə baxmaq lazım gəlir.***

## Suriya məsələsinə hələ çox "toxunmaq" istəyən olacaq və bunun təsirlərinin də qaçılmaz olduğu bir reallıqdır

Hazırki məqamda, ələlxüsus da Suriya məsələsinin gündəmdə olduğu bir zamanda məşhur ingilis şərqşünası Patrik Sialın əsərləri yada düşür. Çünki həmin ingilis şərqşünas məhz Suriyaya dair özünün iki kitabında bu ölkənin bütövlükdə elə Yaxın Şərqə "nəzarət"in açarı olduğunu iddia etməsi tamamilə yerinə düşür. Məhz həmin ingilis şərqşünası Sialın sözlərinə görə, Suriyadakı hadisələrin mahiyyətinin müəyyən edilməsində üstünlük qazanan tərəf və ya partiyalar oyunun qaydalarını diktə etmək və öz gündəmlərini regionun qalan hissəsinə tətbiq etmək üçün çox daha yaxşı vəziyyətdə olacaq görünürlər. Belə çıxır ki, Suriya məsələsinə hələ çox "toxunmaq" istəyən olacaq və bunun təsirlərinin də qaçılmaz olduğu bir reallıqdır. Əslində, bir çoxları elə hesab edirlər ki, region ölkələrinə nüfuz etmək üçün Suriyanın indiki vəziyyətindən istifadə niyyəti hər an ortaya çıxa bilər. Onsuz da bu vaxta qədər olan müdaxilələr də az deyildi. Hər halda, bundan sonra daha çox olacağı qənaəti də məhz elə həmin fikirdən qaynaqlanır. Görünür, elə məhz Suriyanın Yaxın Şərqin açarı hesab edilməsi də buna görədir. Yəqin ki, hadisələrin bundan sonra necə cərəyan edəcəyini gözləmək qalır, çünki indidən proqnoz vermək hələ çox tezdir və belə güman olunur, hər şey zamanında özünü göstərə bilər. Bununla belə, region ölkələrinə təsir məsələsi nəzərə alındığı üçün Suriyanın məhz Yaxın Şərqin açarı olması fikrinə qətiyyən qarşı deyilik.

## Suriyadakı hadisələrin, mövcud vəziyyətin Yaxın Şərqə, regiona təsirləri hər kəsi düşündürür

Bəli, Suriyada hakimiyyət çox tez çökdü. Bununla bağlı çoxlu sayda suallar hələ də açıq və cavabsız qalır. Məsələn, belə bir sual yaranır ki, Bəşər Əsəd rejimi niyə süqut etdi? Həmin sual ümumiyyətlə, hələ bundan sonra çox səsləndiriləcək. Həqiqətən də maraqlı və düşündürücü sualdır, amma daha çox diqqəti cəlb edən, daha böyük maraq doğuran, ən çox düşündürən sual Suriyada artıq baş verənlər yox, bundan sonrakı gözləntilər və həmin hadisələrin hansısa təsirləri ilə bağlıdır. Beləki, insanları düşündürən ən ilginc sual, məhz vəziyyətin bundan sonra hansı şəkildə dəyişəcəyi ilə bağlılıdr. Ümumiyyətlə, Suriyadakı məlum hadisələrin, dəyişikliklərin, mövcud vəziyyətin bundan sonrakı təsirləri, ələlxüsus da Yaxın Şərqə, regiona təsirlərinin necə olacağı hər kəsi düşündürür. Həqiqətən də maraqlıdır ki, görəsən, Suriyadakı hadisələr Yaxın Şərqdəki vəziyyəti necə dəyişə bilər, yaxud necə dəyişəcək və təsirləri də necə olacaq?

Suriya uğrunda mübarizə, əslində, Yaxın Şərq uğrunda mübarizədir

Tarix təsdiq edir ki, Suriya məhz region ölkələrinin klassik Avropa müstəmləkəçiliyinə qarşı apardığı mübarizədə, daha sonra isə ABŞ başda olmaqla Qərbin burada hərbi ittifaq sistemi yaratmaq cəhdlərinin qarşısının alınmasında müxtəlif zamanlarda həlledici rol oynayıb. Qərb həqiqətən də istənilən şəkildə qurulan ittifaqları məhz "strateji boşluğu" doldurmaq istəyi kimi hər zaman təqdim edib, amma tarixi reallıqlar da öz sözünü deyir. Hər halda, dünya ictimaiyyətinin diqqətini cəlb edən elə məqamlar var ki, onları təkzib etmək və ya əksini söyləmək absurd görünür. Daha dəqiq desək, Suriyanın hansı şəkildə Yaxın Şərq üçün açar olması fikrinin də əsaslandırılması da heç nədən yaranmayıb. Əgər ingilis şərqşünasının timsalında kimlərsə belə bir fikirdədirlərsə, deməli, istinad etdikləri məqamlar var.

Bir çox politoloqlar qeyd edirlər ki, Süveyş kanalını milliləşdirəndə Suriya Misiri dəstəkləyib və 1956-cı ildə üçtərəfli təcavüzə də əməlli başlı müqavimət də göstərib. Onlar xüsusilə diqqətə çatdırırlar ki, 1958-ci ilin fevralında isə Suriya-Misir birliyi bəyannaməsi bölgənin üzləşdiyi çoxsaylı təhlükələrə qarşı qalxan olub. Daha sonra 1963-cü ildə Misir, İraq və Suriya arasında üçtərəfli birlik yaratmaq üçün danışıqlar da aparıldığı bir çox siyasətçilər tərəfindən vurğulanır. Bunun ardınca isə 1966-cı ildə Suriyada baş verən çevrilişin ərəblər arası koordinasiyanı pozduğu və 1967-ci ildə ərəblərin məğlubiyyətinin amillərindən də birinə çevrildiyi həmin siyasətçilər və politoloqlar tərəfindən nəzərə çatdırılır. Onlar xüsusilə xatırladırlar ki, Misir-Suriya əməkdaşlığı 1973-cü ilin oktyabrında ərəblərin müharibədə irəliləyişində belə mühüm rol oynayıb. Təbii ki, məhz elə bütün bunlar nəzərə alınaraq, buradan bir çox regional və beynəlxalq oyunçular belə nəticə çıxarırlar ki, Suriya uğrunda mübarizə, əslində, Yaxın Şərq uğrunda mübarizədir.

## Qısamüddətli nailiyyətlər gələcəkdə böyük problemlərə belə açar ola, təhlükə yarada bilər

Hansısa nailiyyətlər hələ hər şey demək deyil və bunun təsirlərinin nədən ibarət olacağı da sual doğuran məqamlardır. Təkzib etmək olmaz ki, qısamüddətli nailiyyətlər gələcəkdə böyük problemlərə belə açar ola, təhlükə yarada bilər. Nəzərə almaq lazımdır ki, Suriyada xaos və artan etnik parçalanmanın olması təkcə Suriya xalqı üçün arzuolunmaz nəticələr vəd etmir. Beləki, məhz Suriyada baş verənlərin, ələlxüsus da qarışıqlığın, parçalanmaların həm də qonşu ölkələr üçün dəhşətli nəticələrə səbəb ola biləcəyi ilə bağlı proqnozlar da dünyanın siyasi gündəmini zəbt edib. Məsələn, nümunə üçün qeyd edək ki, Amerikanın "Middle East Forum" jurnalı məhz Suriyadakı hadisələri, ələlxüsus da oradakı mövcud durumu, xaosu əsas gətirərək, İordaniya kralı II Abdullahın süqutunun mümkünlüyünü belə proqnozlaşdırır.




Suriyada hər şeyin hələ yeni başladığı ilə bağlı çoxlu sayda fikir və mülahizələr var. Bununla belə, Heyət Təhrir əl-Şamın İdlib üzərindəki nəzarətini bütün Suriyaya ekstrapolyasiya edə bilməsi ehtimalı çox azdır. Modelin genişləndirilməsi ümumiyyətlə, qeyri-mümkün görünür. Əvvəla ona görə ki, Suriya coğrafi baxımdan belə böyükdür. Digər tərəfdən də çox müxtəliflik var və hazırda islamçıların təsirli hesab etdikləri nəzarətindən də kənar silahlı adamlarla doludur. Yeri gəlmişkən, onu da diqqətə çatdıraq ki, bu təşkilat ABŞ, Rusiya və Avropa İttifaqının özündə belə terrorçu hesab olunur.

Əlbəttə ki, ekstremist qruplar təkcə Suriyanın qonşuları üçün deyil, bütün ərəb ölkələri üçün qorxuludur. Xüsusilə İordaniya, İraq, Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirliyi üçün təhlükəli hesab olunmaqdadır. Bir çox politoloqlar hesab edirlər ki, region bu gün yenidən kürd məsələsinin kəskinləşməsi ilə üz-üzədir. Ələlxüsus da nəzərə almaq lazımdır ki, amerikalılar Suriyanın şərqindəki kürd təşkilatlarına himayədarlıq edirlər və bunu heç də görməməzlikdən gəlmək və hesaba almamaq mümkün deyil. Yenə də bütün bunlar bəzi politoloqlara onu deməyə əsas verir ki, Suriya Yaxın Şərqin açarı sayılır.

## Yaxın Şərqin "qıfılını" açmaq cəhdləri qətiyyən istisna edilə bilməz

Əlbəttə ki, Suriyada hakimiyyətin transformasiyasına ümumi yanaşmanın hazırlanması üçün ilk növbədə İran, İraq, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, Misir və İordaniya ilə təcili məsləhətləşmələri bir çox siyasətçilər zəruri hesab edirlər. Söhbət Əsəd hökumətinə qarşı tətbiq edilən sanksiyaların dərhal ləğvindən, istənilən fraksiya münaqişəsinə qarşı razılığın əldə olunmasından və Suriyaya humanitar, eləcə də iqtisadi yardım proqramlarının hazırlanmasından gedir. Hər halda, hansı proqramların, ümumiyyətlə, hansı yanaşmanın hazırlanması məsələsi bundan sonra bəlli olacaq. Amma bununla belə deyə bilərik ki, əgər ölkə məhz "açar" hesab olunursa, deməli, elə həmin kontekstdə də yanaşılacaq.

Həmçinin, Türkiyə və İsraillə ümumi razılaşdırılmış mövqe əsasında danışıqlara başlamaq da əsas şərtdir. Etiraf etmək lazımdır ki, hər iki ölkə regionda söz sahibi hesab olunur və bu məqamda razılaşdırılma olmadan nəyə isə ümid etməyə belə dəyməz. Xüsusən nəzərə alınmalıdır ki, Suriyanın dağılması istər suriyalılar, istərsə də region üçün daha pis nəticələrə də səbəb ola bilər və razılaşdırılma dedikdə də politoloqlar tərəfindən nəyin nəzərdə tutulduğu da bu məsələ ilə bağlıdır. Hansısa xarici qüvvələr bu məsələdən öz məqsədləri üçün istifadə etməyə cəhd etdikləri təqdirdə, məsələn, Suriyadan ərazilərin müəyyən hissələrini "qoparmaq" cəhdləri ortaya çıxdığda heç də xoşagələn hadisələr gözlənilə bilməz. Əslində, belə bir hal beynəlxalq hüquqa və BMT Nizamnaməsinə ziddir, amma zidd olub-olmamasına baxmayaraq, belə cəhdlərin olma ehtimalı da var. Hər halda, işğalçı ölkə olan Ermənistanın da məhz həmin o beynəlxalq hüquq və haqqında qeyd olunan Nizamnaməyə məhəl qoymadan qonşu ölkənin, yəni, ölkəmizin ərazilərini "zəbt" etməsi "təcrübəsi" həmin ehtimalın reallığa nə dərəcədə yaxın olduğunu təsdiqləyir. Deməli, Yaxın Şərqin "qıfılını" açmaq cəhdləri qətiyyən istisna edilə bilməz və bunun üçün açar hesab olunan ölkə elə məhz bu baxımdan Suriya hesab olunur...

***İnam Hacıyev***

# "Dünyasını dəyişmiş şəxsin ailə üzvləri kompensasiya tələb edə bilər"



***AZAL Hava Yollarına məxsus təyyarələr, onların istismar müddəti necədir? Hansı şirkətlərdən təyyarələr alırıq? Neçə il istismar olunur? Neçə ildən sonra yararsız sayılır? Şirkətlərin günahı ucbatından hansısa formada vəfat edən və ya əlil olan şəxslər necə kompensasiya olunur? Kim tərəfindən? Neçə il? SİA suallara cavab olaraq Səyahət və aviasiya blogeri Azər İsmayılın, vəkil Elvin Səlimovun, vəkil Anar Qasımlının fikirlərini öyrənib.***

**Səyahət və aviasiya blogeri Azər İsmayıl:** "Azərbaycan Hava Yolları dünyanın ən böyük üç aviasiya şirkəti, təyyarə istehsalçısı ilə əməkdaşlıq edir. Bunlar "Boeing", "Air-



bus", "Embraer" təyyarələridir. "Boing" təyyarələri AZAL-da geniş gövdəli təyyarələrdir. Bunlar daha çox uzun məsafəli relslərə istifadə olunur. "Airbus"da "Airbus 320" və "Airbus 319" təyyarələridir. Bir də "Airbus A320neo"dir ki, bunlar ən müasir təyyarələrdir. Üç ədəd AZAL-da belə təyyarə var. Bu təyyarələr cəmi iki il bundan əvvəl gətirilib. Bir də "Embraer 190" təyyarələri var. Hansı ki, qəza edən təyyarə modeli budur. Bu təyyarələrdən də 8 ədəd idi. Biri qəza etdi.

Azərbaycan Hava Yollarında ən yaşlı təyyarələr "Airbus 319" təyyarələridir. Bunların 19 yaşları var. Hazırda istifadə olunur. Amma bu yaxınlarda bir ədəd "Boeing 757" təyyarəsi artıq istismardan çıxarıldı. Bu, təxmini 25 ilin təyyarəsi idi. Bu təyyarə sentyabr ayında artıq istismardan çıxarıldı.

Ümumiyyətlə, dünya praktikasında təyyarələr təxmini 25-30 il istifadə olunur. Amma hər il, hər kvartalda bu təyyarələr texniki baxışdan keçirilir. Həm də uçuşdan qabaq da pilotlar vizual olaraq təyyarəni müşahidə edir. Eyni zamanda sistemdə də çalışmasını yoxlayır. Bütün təyyarələr saz vəziyyətdə olur. Dünyanın bütün aviaşirkətlərinin prioritet məsələsi uçuşun təhlükəsizliyidir. Bu, AZAL üçün də keçərlidir. Uçuşun təhlükəsizliyi birinci yerdədir. 100% əmin olmadıqları təyyarə ilə heç vaxt uçuş etmirlər. Bu, dünyanın bütün aviaşirkətlərində belədir".

**Vəkil Elvin Səlimov:** "İstənilən istehsalat xəsarəti ilə bağlı işçilər sığortalanır. Həmin sığorta məbləğinə uyğun olaraq sığorta şirkəti tərəfindən xəsarət alan şəxsin özünə və yaxud da, həyatını dəyişmiş şəxsin birinci növbəli vərəsəsinə həmin məbləğ ödənilir. Məbləği birbaşa demək olmur. Sığorta hadisəsindən və sığorta hadisəsi nəticəsindən irəli gəlir. Sığorta məbləğindən asılı olaraq dəyişir. Amma bundan əlavə xəsarət alan şəxs, yaxud da, istehsalat qəzasında dünyasını dəyişmiş şəxsin ailə üzvləri həmin şirkətə qarşı iddia qaldırıb ondan kompensasiya tələb edə bilər. Kompensasiyanın məbləği də konkret rəqəmlə tənzimlənmir. Bu kompensasiya məbləği həyatını itirmiş şəxsin iş funksiyasından, əmək haqqından, həyat şəraitindən və sairdən asılıdır.

Misal olaraq demək olar ki, əgər dünyasını dəyişmiş şəxsin körpə övladı varsa, həmin uşaqların saxlanma xərci şirkətdən tələb oluna bilər. Ailə üzvlərinə ailə başçısını itirməyə



görə kompensasiya olaraq ödəniş həyata keçirilə bilər. Digər bütün mənəvi zərər və digər zərərlərlə bağlı kompensasiya ödənilməsi ilə bağlı məhkəmədə iddia irəli sürülə bilər. Təbii ki, əgər şirkət həmin kompensasiyanı könüllü şəkildə ödəməkdən imtina etdikdə məhkəmədə iddia irəli sürülə bilər".

**Vəkil Anar Qasımlı:** "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə müvafiq olaraq işçilərin sağlam və təhlükəsiz əmək şəraitində işləmək hüququ vardır. Sağlam və təhlükəsiz əmək şəraitinin təmin edilməsi işəgötürənin vəzifə öhdəliyidir.

İstehsalatda bədbəxt hadisə əmək funksiyalarını yerinə yetirərkən işçinin bədən üzvlərinin, toxumalarının zədələnməsi ilə sağlamlığının qəflətən və kəskin pozulması halıdır. Peşə xəstəliyi isə əlverişsiz və zərərli istehsa-



lat amillərinin işçinin orqanizminə təsiri nəticəsində baş verən xroniki və ya kəskin xəstəlikdir.

"İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən işçinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulduqda və ya bu səbəbdən həlak olduqda (bundan sonra - istehsalda əmək xəsarəti), bədbəxt hadisənin araşdırılması barədə müvafiq akta əsasən təqsirkar müəssisə, idarə və təşkilatlar (bundan sonra - təqsirkar işəgötürən (təqsirkar müəssisə) işçiyə dəyən zərərə görə qanunvericiliyə uyğun olaraq maddi məsuliyyət daşıyır.

Aşağıdakı sənədlər olduqda, təqsirkar işəgötürən əmək xəsarətinə görə dəyən zərəri ödəməlidir:

istehsalatda baş vermiş bədbəxt hadisə haqqında qanunvericiliklə müəyyən edilmiş formada tərtib olunmuş akt və yaxud işəgötürən tərəfindən əməyin mühafizəsi qaydalarına əməl olunmadığına görə işçi ilə istehsalatda bədbəxt hadisənin baş verməsi barədə məhkəmənin hökmü (qətnaməsi, qərarı);

2. işçinin peşə əmək qabiliyyətinin itirilməsini və yaxud peşə xəstəliyini təsdiq edən Tibbi-Sosial Ekspert Komissiyasının (TSEK) qərarı və yaxud ölümü haqqında şəhadətnamə.

TSEK qüvvədə olan qanunvericiliyə müvafiq istehsalatda əmək xəsarəti nəticəsində zərərçəkənin peşə əmək qabiliyyətinin (peşə əmək qabiliyyəti olmadıqda isə ümumi əmək qabiliyyətinin) itirilmə müddətini, dərəcəsini (faizini), əlillik dərəcəsini və habelə səhhətinin pozulması ilə əlaqədar əlavə çəkdiyi xərcləri (qüvvəli yeməklər, protezlər, kənar şəxsin ona göstərdiyi xidmət və sair xərclər) müəyyən edir və bu barədə qərar çıxarır.

Əmək xəsarəti ilə əlaqədar təqsirkar müəssisə zərərçəkənə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclərin əvəzini bu şərtlə ödəyir ki, zərərçəkənin həmin yardım və qulluq növlərinə möhtac olduğu və bunları pulsuz almaq hüququnun olmadığı müəyyənləşdirilsin.

Zərərçəkənə istehsalatda əmək xəsarəti nəticəsində onun itirdiyi peşə əmək qabiliyyətinin dərəcəsindən asılı olaraq aylıq ödənclər, habelə sağlamlığının pozulması ilə bağlı əlavə çəkdiyi xərclər ödənilir. Qeyd edək ki, zərərçəkənin qəsdi nəticəsində əmələ gəlmiş zərərdən başqa, zərərçəkənin günahının dərəcəsindən asılı olmayaraq dəyən zərərin əvəzi ödənilir. Aylıq ödənc - zərərçəkənin xəsarət almazdan və yaxud peşə əmək qabiliyyətini itirdiyi gündən əvvəl malik olduğu orta aylıq əmək haqqının həmin xəsarət nəticəsində itirdiyi peşə əmək qabiliyyətinin faizi miqdarında müəyyən edilib ödənilir. İstehsalatda əmək xəsarəti nəticəsində həlak olmuş şəxsin himayəsində olmuş və zərərə görə aylıq ödənc hüququna malik şəxslərə himayəçinin vəfat etməmişdən əvvəlki faktiki orta aylıq əmək haqqının 100 faizi miqdarında ödəniş müəyyən edilir. Zərərə görə aylıq ödəncin miqdarının hesablanmasında götürülən orta əmək haqqı zərərçəkənin əmək xəsarəti almamışdan və ya peşə əmək qabiliyyətini itirməmişdən, vəfatından öncə əvvəlki 12 təqvim ayı (12 aydan az işləmiş olduğu halda faktiki işləmiş aylar nəzərə alınır) üzrə hesablanır. 18 yaşına çatmamış zərərçəkənin aylıq ödəncinin miqdarı isə minimum əmək haqqının 5 mislindən az ola bilməz.

Zərərçəkənin (ailə başçısının) vəfatı halında zərərə görə ödəncləri almaq hüququ olan şəxslər Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1121-ci maddəsi ilə müəyyən edilir. Zərərçəkənin (ailə başçısının) öldüyü halda aşağıdakıların zərərin əvəzinin ödənilməsi hüququ vardır:

ölənin himayəsində olmuş və ya onun öldüyü günədək ondan dolanacaq təminatı almaq hüququna malik olmuş əmək qabiliyyəti olmayan şəxslər; şəxsin ölümündən sonra doğulmuş uşağı; ölənin himayəsində olmuş və onun on dörd yaşına çatmamış, yaxud bu yaşa çatsa da, tibb orqanlarının rəyinə əsasən sağlamlıq vəziyyətinə görə başqasının qulluğuna möhtac olan uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan və işləməyən valideynlərdən biri, arvad (ər) və ya digər ailə üzvü - əmək qabiliyyətindən asılı olmayaraq; ölənin himayəsində olmuş və onun ölümündən sonra 5 il ərzində əmək qabiliyyətini itirmiş şəxslər.

Zərərin əvəzi aşağıdakı müddətə ödənilir:

yetkinlik yaşına çatmayanlara - 18 yaşına çatanadək; 18 yaşından yuxarı tələbələrə - əyani təhsil forması üzrə təhsil müəssisələrində təhsili bitirənədək, lakin ən çoxu 23 yaşınadək; 55 yaşından yuxarı qadınlara və 65 yaşından yuxarı kişilərə - ömürlük; əlilliyi olan şəxslərə - əlillik müddəti üçün;

ölənin himayəsində olmuş uşaqlarına, nəvələrinə, qardaşlarına və bacılarına qulluq etməklə məşğul olan valideynlərdən birinə, arvada (ərə) və ya digər ailə üzvünə - qulluq etdikləri 14 yaşına çatanadək.

Belə ki, Əmək Məcəlləsinin 239-cu maddəsi və yuxarıda adı çəkilən NK-in 3 saylı qərarında nəzərdə tutulmuş ödənclərin verilməsi qanunvericiliklə müəyyən edilmiş qaydada işəgötürən tərəfindən istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunan işçilərə şamil olunmur.

İşəgötürən qanunvericiliklə müəyyən olunmuş qaydada hər bir işçinin istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təmin etməlidir. Əmək müqaviləsində işçinin sığortalanması barədə müvafiq məlumatların göstərilməsi mütləqdir".

***Söylü Ağazadə***

# Sağlam gələcəyin sağlam gəncliyi



Müasir gənclik azad fikirli və düşüncəli, cəsarətli, bilikli, vətənpərvər gənclikdir. Müstəqil dövlətin nümayəndəsi kimi dünyaya çıxan və müxtəlif səpkili tədbirlərin iştirakçısı olaraq qalibiyyət əldə edən, kreativ gənclikdir. Cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclər daim axtarışda olan, yeniliyi sevən böyük bir ordudur. Ölkəmiz öz müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan gənclərinə diqqət və qayğı artdı. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra ölkə gənclərinin sağlam ruhda tərbiyəsi, əsl vətəndaş kimi formalaşması istiqamətində məqsədyönlü islahatlar həyata keçirildi. Ümummilli Lider Heydər Əliyevin 1994-cü ilin iyulun 26-da imzaladığı Fərmanla Gənclər və İdman Nazirliyinin yaradılması dövlət gənclər və idman siyasətinin əsas istiqamətlərini müəyyənləşdirmiş oldu. Gənclərin qüvvə və bacarıqlarının, yaradıcılıq imkanlarının milli dövlət quruculuğu vəzifələrinin yerinə yetirilməsinə, ölkədə həyata keçirilən islahatlar proqramlarının gerçəkləşdirilməsinə səfərbər olunması əsas məsələlərdən birinə çevrildi.

Fərmandan irəli gələrək gənclər arasında Azərbaycanın tarixi və mədəni irsini yaymaqla, onların vətənpərvərlik, Vətənə sədaqət, müstəqilliyimizin, dövlətçiliyimizin, torpaqlarımızın müdafiəsinə daimi hazırlıq ruhunda tərbiyə edilməsi istiqamətində ciddi addımlar atıldı. Müstəqillik dövründə gənclərin ictimai-siyasi fəallığı vətəndaş cəmiyyətinin qurulması üçün zəruri şərtlərdən biri kimi yeni demokratik münasibətlərin formalaşmasına təkan verib. Dövlətimiz tərəfindən silsilə olaraq həyata keçirilən tədbirlər gənclərin inkişafına stimul verdi. 1996-cı ildə müstəqil Azərbaycan gənclərinin ilk ümumrespublika forumunun keçirilməsi, 1997-ci ildə 2 Fevralın Azərbaycan Gəncləri günü elan edilməsi, çoxsaylı dövlət proqramlarının qəbulu, 1999-cu ildə "Dövlət gənclər siyasəti haqqında" Fərmanın imzalanması və geniş fəaliyyət proqramının təsdiq edilməsi, 2002-ci ildə "Gənclər siyasəti haqqında" Qanunun qəbulu Ulu Öndər Heydər Əliyevin gənclərə böyük qayğının və etmadın nümunəsidir.

Ulu Öndərin uzaqgörənliklə formalaşdırdığı gənclər siyasəti yeni bir mərhələyə qədəm qoymuşdur. Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin uğurla davam etdirməsi nəticəsi dövlət gənclər siyasətinin prioritet sahələrində müsbət dəyişikliklər baş verib və ciddi nailiyyətlər əldə edilib. Azərbaycan Prezidenti İlham Əliyevin gəncləri cəmiyyətin aparıcı qüvvəsinə çevirmək, onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə təsdiqlədiyi dövlət proqramları uğurla həyata keçirilir. Dövlət quruculuğunda gənclərin artan rolu, onların mənəvi inkişafı, vətənpərvərlik ruhunda tərbiyəsi, Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil alması, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli, gənclər təşkilatlarının formalaşdırılması və inkişafı üçün yaradılmış şərait bu diqqət və qayğının nəticəsidir. Prezident İlham Əliyevin 2007-ci ili "Gənclər ili" elan etməsi də gənclərin ölkə həyatında fəallığını xeyli artırmışdır. Gənclərin xaricdə təhsil almasına dəstək verən "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət proqramı" gənclərə böyük imkanlar yaratmış oldu. Bu proqram respublikamızda gənclər siyasətinin daha da səmərəli həyata keçirilməsində əhəmiyyətli rola malikdir. Prezident İlham Əliyevin müəyyənləşdirdiyi dövlət siyasətində gənclik mövzusunun aktuallığı bir daha aydın təsbit olunur. Proqram çərçivəsində minlərlə gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi də gənclərin təhsilinin artırılmasına xidmət edən addımlardandır. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası" da gənclər üçün böyük perspektivlər açır. Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir.

## İDMANIN VƏ BƏDƏN TƏRBİYƏSİNİN İNKİŞAFI

## DÖVLƏT SİYASƏTİNİN PRİORİTET QOLLARINDAN BİRİNƏ ÇEVRİLDİ

Gənclər siyasətindən söz açarkən, idmanın inkişaf etdirilməsi və onun kütləviliyinin artırılmasını qeyd etməliyik. "Sağlam bədəndə sağlam ruh olar" prinsipinə söykənərək demək olar ki, Azərbaycan həm də sağlam gəncliyi və sağlam gələcəyi olan bir dövlətdir. Ölkəmizdə idmana qayğı bu sahənin inkişafına böyük töhfələr verir. Qeyd edək ki, müstəqilliyimizin ilk illərində Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə əsaslanan sağlam həyat tərzinin əhali arasında aşılanmasının təmin edilməsi, bədən tərbiyəsinin geniş təbliğinin təşkil edilməsi də diqqətdə duran məsələlər sırasında idi. Ulu Öndər Heydər Əliyev hələ ölkəmizə sovet dövründə rəhbərliyi dövründə bütün sahələrdə olduğu kimi, idmanın da inkişafına böyük diqqətlə yanaşılmış, gələcək inkişaf perspektivləri ciddi nəzərə alınmışdı. O illərdə idmanın maddi-texniki bazasının yaradılması üçün çox iş görülmüşdü. Bir çox idman kompleksləri, qurğuları, meydançalar salınmış, böyük idman-sağlamlıq mərkəzləri yaradılmışdı.

Ümumilikdə. ötən əsrin 70-ci illərində Bakıda 250 idman meydançası və şəhərciyi salınmışdı. 1973-cü ildə Bakıda möhtəşəm idman sarayının təməli qoyularaq inşa edildi. 1974-cü ildə ölkənin 36 rayonunda 59 uşaq-gənclər idman məktəbi fəaliyyət göstərirdi. Azərbaycanın dövlət müstəqilliyinin ilk illərində özünü bütün sahələrdə qabarıq göstərən ideoloji-siyasi, iqtisadi böhran səbəbindən idman siyasəti tamamilə diqqətdən kənarda qalmışdı. Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı bütün sahələrdə olduğu kimi idman sahəsində də böyük dönüş yaratmış oldu. İdmanın və bədən tərbiyəsinin inkişafı dövlət siyasətinin prioritet qollarından birinə çevrildi, bu sahədə yüksəlişin əsası qoyuldu. Yuxarıda qeyd etdiyimiz kimi, dövlətin gənclər və idman siyasətinin həyata keçirilməsi üçün Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Gənclər və İdman Nazirliyi yaradıldı. Ulu Öndərin idman sahəsində həyata keçirdiyi siyasət 1997-ci ildən mühüm mərhələyə qədəm qoydu. Rəhbərlik etdiyi bütün sahələrdə uğurlara imza atan Cənab İlham Əliyevin Milli Olimpiya Komitəsinin Prezidenti seçilməsi Azərbaycan idmanının həyatında mühüm və əlamətdar hadisə kimi tarixə yazıldı. Bu tarixi seçim Ümummilli Lider Heydər Əliyevin respublikada idmanın inkişafı ilə bağlı ideyalarının daha sürətlə gerçəkliyə çevrilməsini təmin etdi, idman sahəsində həyata keçirilən dövlət siyasətinin yeni şəraitdə gerçəkləşməsinə böyük imkanlar açdı. İdmançılara dövlət qayğısı ilə yanaşı, idmanın maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm işlərə start verildi. 2000-ci ildən etibarən Azərbaycanın müxtəlif bölgələrində müasir tipli olimpiya idman kompleksləri tikilib istifadəyə verilməyə başladı.

Hazırda ölkəmizdə 200-dən artıq gənclər təşkilatı fəaliyyət göstərir. Azərbaycan gəncləri Avropa miqyasında, beynəlxalq qurumlarda təmsil olunurlar. Onlar beynəlxalq tribunalardan xalqımızın haqq səsini dünyaya yayır, beynəlxalq ictimaiyyətin əsl həqiqəti bilməsi üçün var gücü ilə çalışırlar. Qürurlu haldır ki, xalqımızın qəhrəmanlıq tarixini yazanlar da onlardır. Gənclərin ictimai-siyasi proseslərdə, müstəqil Azərbaycanın inkişafında lazımı səviyyədə iştirak edə bilməsi üçün mənəvi əsas olmalıdır. Bu mənəvi əsas əsrlər boyu xalqımızın əldə etdiyi milli dəyərlər, vətənpərvərlik duyğusu, torpağa bağlılıq, milli tariximizə olan sevgidən ibarətdir.

## "SON İLLƏR ƏRZİNDƏ AZƏRBAYCANDA VƏTƏNPƏRVƏR, GÜCLÜ, MİLLİ RUHDA TƏRBİYƏ ALMIŞ GƏNC NƏSİL YETİŞİB"

Qürurverici haldır ki, Azərbaycan gəncləri yüksək vətənpərvərlik ruhunda formalaşıb. Bu gün yüksək milli ruhlu gənclərimiz Ali Baş Komandanın əmri ilə torpaqlarımızı işğaldan azad etdi. 30 illik həsrətə son qoyuldu. 44 gün davam edən Vətən müharibəsində qəhrəmanlıq göstərən gənclərin şücaəti, mücadiləsi milyonlarla insanlarda qələbə sevincini yaşatdı. Xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən bu tarixi gündə gənclərimiz nəyə qadir olduqlarını göstərə bildilər.

Bu gün müstəqil Azərbaycan dövlətinin gəncləri vətənpərvər, cəmiyyətin aparıcı qüvvəsinə çevrilən gənclərdir. Gənclərin Vətən müharibəsi başlayanda könüllü olaraq orduya yazılması, vətən torpaqlarının müdafiəsinə qalxması vahid niyyət ətrafında birləşən gənclərimizin əzmkarlığını, vətənə sevgisini bir daha göstərmiş oldu. "Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib", deyə Azərbaycan Prezidenti İlham Əliyev bildirib. Azadlıq eşqimiz olan üçrəngli bayrağımız bu gün göylərə yüksəlib. Öz canları, qanları bahasına vətənimizin müdafiəsinə qalxan igid oğullarımız şəhidlik zirvəsinə ucaldılar.

Bu gün hər bir gəncin üzərində ciddi mənəvi məsuliyyət var. Bu, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi mənəvi məsuliyyətdir. Cənab Prezident İlham Əliyev tərəfindən uğurla aparılan gənclər siyasəti, Azərbaycan əsgərinin qələbəsi əminliklə deməyə əsas verir ki, gənclər mütəşəkkil, vətənpərvər, geniş dünyagörüşlü və mübariz gənclərdir.

*Nəzakət ƏLƏDDİNQIZI*



# Yeni İldə uşaqlara nə hədiyyə edək?

***Yeni il ərəfəsində uşaqlar üçün hədiyyələr seçərkən mütləq uşağın yaş qrupuna, şəxsi maraqlarına və inkişaf səviyyəsinə uyğun məhsullar seçmək lazımdır. Xüsusilə erkən uşaqlıq dövründə olan fərdlər duyğu və beyin bacarıqlarını inkişaf etdirən məhsullara yönəldilməlidir. Məsələn, 4 yaşlı uşaq üçün alına bilən hədiyyələr arasında oyun xəmiri dəstləri və ya sadə tikinti oyuncaqları ola bilər. Rənglər, formalar və materiallarla qarşılıqlı əlaqədə ola biləcəkləri oyuncaqlar bu yaş qrupu üçün vacibdir.***

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Daha böyük yaş qrupları, xüsusilə 7-9 yaş arası uşaqlar üçün düşünmə, problem həll etmə və komanda işi kimi bacarıqları inkişaf etdirən oyunlar ön plana çıxır. 9 yaşlı bir uşağa hədiyyə olaraq məktəb dəstləri, təcrübə dəstləri və ya yaradıcı sənət dəstləri olduqca uyğun olardı. Bu cür hədiyyələr uşağa nəinki həzz verir, həm də tərbiyəvi cəhətdən onu maarifləndirir. Əlavə olaraq, Yeni il temalı oyunlar və ya fəaliyyət dəstləri uşağın yeni il üçün xüsusi suvenir kimi saxlaya biləcəyi seçimlər ola bilər.



## Oğlan uşağı üçün yeni il hədiyyəsinin seçilməsi

Oğlanlar üçün hədiyyələr seçərkən, ümumiyyətlə, onların kəşfiyyata, yeni şeylər qurmağa və öyrənməyə marağı nəzərə alınmalıdır. 10 yaşlı uşaq üçün hədiyyə seçərkən elm və texnologiya yönümlü dəstlər böyük əhəmiyyət kəsb edir. Xüsusilə robotik dəstlər və kodlayıcı oyuncaqlar uşaqların texnologiyaya marağını artırır və onları kəşf etməyə həvəsləndirir. Yeni il gecəsi üçün alına biləcək hədiyyələr arasında tikinti oyuncaqları və LEGO dəstləri kimi məhsullar da var. Bu cür oyuncaqlar uşağın təxəyyülünü stimullaşdırır, eyni zamanda onların əl bacarıqlarını artırır.



İdman avadanlıqları da oğlanlar üçün çox populyar bir seçimdir. Basketbol və futbol kimi açıq hava oyunları üçün avadanlıq və ya evdə istifadə oluna bilən mini stolüstü oyunlar uşaqların fiziki fəaliyyətlə məşğul olmasına və enerjilərini müsbət yöndə yönəltməsinə şərait yaradır. Oğlanlar üçün yeni il hədiyyələri kimi fəaliyyətləri təşviq edən məhsullar da onların sağlam inkişafına kömək edir. Həm də strateji düşüncə və komanda işi tələb edən stolüstü oyunlar oğlanlar üçün xoş bir hədiyyə ola bilər.

## Qız üçün yeni il hədiyyəsinin seçilməsi

Qızlara yeni il hədiyyələri seçərkən onların yaradıcılığını və maraqlarını dəstəkləyəcək məhsullara üstünlük verilməlidir. Qızlar tez-tez təxəyyüllərini stimullaşdıran fəaliyyətlərdən həzz alırlar. Boyama kitabları və sənət dəstləri onlara rəngləri kəşf etməyə və əl bacarıqlarını inkişaf etdirməyə kömək edir. Xüsusilə yaşa uyğun rəngləmə kitabları və keyfiyyətli rəngli karandaşlar uzun müddət zövq ala biləcəkləri bir hədiyyə ola bilər.

Bundan əlavə, oyuncaq mətbəx dəstləri qızlara real həyatı təqlid etmək və sosial bacarıqlarını artırmaq imkanı verir. Moda dizayn dəstləri yaradıcılıq bacarıqlarını inkişaf etdirən əyləncəli bir fəaliyyət təqdim edir. Bu cür dəstlər uşaqlara öz dizaynlarını etmək azadlığı verir, eyni zamanda təxəyyüllərini inkişaf etdirir. Qızlara yeni il hədiyyəsi olaraq üstünlük veriləcək məhsullar onların əylənməsinə və bacarıqlarını inkişaf etdirməsinə imkan verəcək şəkildə seçilməlidir.

Bundan əlavə, hədiyyə olaraq göz oxşayan və yenilikçi oyuncaqlara da üstünlük verilə bilər. Məsələn, rəqəmsal dizayn dəstləri və ya interaktiv oyuncaqlar uşaqları erkən yaşda texnologiya ilə tanış edir və onların gələcək maraqlarını formalaşdıra bilər. Qızlar üçün yeni il hədiyyəsi təklifləri arasında bu cür maarifləndirici və əyləncəli məhsullar mütləq nəzərə alınmalıdır.



## Uşaqlar üçün Yeni il hədiyyələrinin növləri hansılardır?

Uşaqlar üçün Milad hədiyyələrinin geniş çeşidi var. Hədiyyə növləri uşaqların yaş qruplarından və şəxsi maraqlarından asılı olaraq dəyişə bilər. Bu prosesdə uşaqlara yeni il hədiyyələri seçərkən həm əylənmələrini, həm də öyrənmələrini təmin edəcək məhsullara üstünlük verilməlidir. Məsələn, elmi dəstlər uşaqların marağına səbəb ola və onları elmi kəşflərə apara bilər. Elm dəstləri uşaqlara təcrübə vasitəsilə öyrənmək imkanı verir və ibtidai məktəb uşaqları üçün mükəmməl Milad hədiyyəsi ola bilər.

Oyun xəmir dəstləri də xüsusilə məktəbəqədər uşaqlar üçün əla hədiyyə variantıdır. Oyun xəmiri uşaqların bacarıqlarını və eyni zamanda onların yaradıcılığını inkişaf etdirir. Fərqli rəng və teksturada xəmirdən istifadə etməklə uşaqlar öz təxəyyüllərini işə salıb, xoş vaxt keçirə bilərlər. Xüsusilə 4-5 yaşlı uşaqlar üçün oyun xəmiri dəstləri Yeni il gecəsi üçün uyğun və öyrədici hədiyyə alternativi təklif edir.

Qutu oyunları həm sosial bacarıqları inkişaf etdirən, həm də uşaqlar arasında ünsiyyəti artıran əla hədiyyə variantıdır. Stolüstü oyunlar uşaqlara strateji təfəkkür, problem həll etmək və komandada işləmək bacarıqlarını inkişaf etdirməyə kömək edir. Bundan əlavə, bu oyunlar ailə və dostlarla oynayaraq sosial əlaqələri gücləndirmək imkanı verir.

## Puzzle

Puzzle uşaqlar üçün həm maarifləndirici, həm də əyləncəli Yeni il hədiyyəsi seçimi kimi seçilir. Uşaqların problem həll etmə qabiliyyətlərini və məntiqi düşünmə bacarıqlarını inkişaf etdirən Puzzle müxtəlif yaş qrupları üçün çoxşaxəli məhsullar təklif edir. Puzzle həmçinin uşaqların səbir və diqqət kimi mühüm bacarıqlarını inkişaf etdirir.

Puzzle uşaqlar üçün Milad hədiyyələri arasında məşhur seçimdir, çünki onlar həm fərdi, həm də ailə olaraq edilə bilən fəaliyyətlər təklif edirlər. Müxtəlif mövzular və personajlarla hazırlanmış puzzle variantları uşaqların diqqətini cəlb edir və onları daha çox həvəsləndirir. Bundan əlavə, Yeni il mövzulu puzzle yeni ilin ruhunu əks etdirən uşaqlar üçün xüsusi suvenir ola bilər.

*Ardı Səh. 7*

# Yeni İldə uşaqlara nə hədiyyə edək?



Əvvəli Səh. 6

### Stolüstü oyunlar

Stol oyunları uşaqlara sosial bacarıqları inkişaf etdirməyə kömək edən, dostları və ya ailə üzvləri ilə vaxt keçirməyə imkan verən əla hədiyyə seçimidir. Xüsusilə strategiya, komanda işi və problem həll etmə bacarıqlarını təşviq edən qutu oyunları bütün yaş qrupları üçün əyləncəli alternativdir. 9 yaşlı uşaqlar üçün stolüstü oyunlar həm maarifləndirici, həm də sosial cəhətdən zənginləşdirici bir hədiyyə ola bilər. Bu tip oyunlar uşaqlarda qaydalara əməl etmək, strategiyalar yaratmaq və əməkdaşlıq etmək bacarıqlarını inkişaf etdirir.

Stolüstü oyunlar həmçinin ailə üzvləri və ya dost qrupları ilə oynayarkən sosial əlaqələri gücləndirmək imkanı verir. Uşaqlar üçün kiçik hədiyyələr axtaranlar üçün stolüstü oyunlar əyləncəli və öyrədici bir həll təklif edir. Ən çox seçilən hədiyyə alternativlərindən biri olan qutu oyunları uşağa əylənmək və müxtəlif bacarıqların inkişafına töhfə verir. Əyləncəli mövzuları və fərqli çətinlik səviyyələri ilə uşaqların diqqətini cəlb edir və Yeni il dövründə uzun müddətli xoş anlar yaşadır. Buna görə də Yeni il hədiyyəsi kimi stolüstü oyunlar uşaqların sosial və idrak inkişafına müsbət töhfə verən ideal seçimdir.

### Oyun xəmiri dəstləri

Oyun xəmiri dəstləri uşaqların əl bacarıqlarını və yaradıcılığını inkişaf etdirmək üçün ən əyləncəli və maarifləndirici hədiyyələrdən biridir. Müxtəlif rənglərdə və teksturalarda xəmirdən hazırlanmış formalar uşaqların təxəyyülünü stimullaşdırır. Oyun xəmiri onların bacarıqlarını inkişaf etdirir, əl-göz koordinasiyasını gücləndirir və uşaqlara əlləri ilə müxtəlif formalar yaratmağa imkan verir. Xüsusilə məktəbəqədər dövr üçün uyğun olan bu dəstlər həm fərdi oyunlar, həm də qrup fəaliyyətləri üçün ideal vasitədir.

Yeni il dövründə uşaqlara alınacaq hədiyyələr arasında populyar seçim olan oyun xəmiri dəstləri də yaradıcı düşünmə bacarıqlarını dəstəkləyir. Müxtəlif mövzular və aksessuarlarla zənginləşdirilmiş dəstlər uşaqların diqqətini cəlb edir və uzunmüddətli oyun təcrübəsi təqdim edir. Xüsusilə 3-6 yaş arası uşaqlar üçün oyun xəmiri onların həm xoş vaxt keçirmələrini təmin edir, həm də inkişafına töhfə verir. Yeni il ərəfəsində oyun xəmiri dəstini hədiyyə etmək uşağa həm əylənməyə, həm də öyrənməyə imkan verən əla seçimdir.

### Boyama kitabı və karandaşlar

Boyama kitabları və rəngli qələmlər uşaqlara bədii istedadlarını kəşf etməyə imkan verən əyləncəli hədiyyələrdir. Boyama kitabları uşaqların yaradıcılıqlarından sərbəst istifadə edə biləcəkləri bir sahə təqdim edərkən, rənglərlə qarşılıqlı əlaqəsi sayəsində onlara bədii dünyagörüşü qazandırmaq və emosional inkişaflarına töhfə vermək imkanı verir. Boyama fəaliyyətləri də bacarıqlarını inkişaf etdirir və əl-göz koordinasiyasını artırır.

Uşaqlar üçün yeni il hədiyyəsi kimi rəngləmə kitabları və keyfiyyətli rəngli karandaşlar xüsusilə kiçik yaş qrupu üçün idealdır. 4 yaşlı uşaqlar üçün hədiyyə ideyaları arasında tez-tez seçilən rəsm dəstləri uşaqların rəngləri tanımasına kömək edir və vizual qavrayışlarını gücləndirir. Bundan əlavə, müxtəlif mövzulu boyayıcı kitablar uşaqların diqqətini cəlb edə və sənətə olan marağını artıra bilər. Bu dəstlər uşaqlara öz yaradıcılıqlarından fərdi şəkildə istifadə etməyə imkan verir və ailə üzvləri ilə xoş vaxt keçirmək imkanı yaradır.

### Uşaqlara Yeni İl hədiyyəsi alarkən nələrə diqqət etmək lazımdır?

Uşaqlara yeni il hədiyyəsi seçərkən nəzərə alınmalı olan ən mühüm amillərdən biri də uşağın yaşına və inkişaf səviyyəsinə uyğun məhsulların seçilməsidir. Hər yaş qrupunun fərqli inkişaf ehtiyacları var və bu ehtiyacları qarşılayan hədiyyələr uşağa həm həzz almağa, həm də yeni bacarıqlar əldə etməyə imkan verir. Xüsusilə məktəbəqədər uşaqlar üçün alınan hədiyyələr uşağın bacarıqlarını və əl-göz koordinasiyasını inkişaf etdirən məhsullar olmalıdır. Bu yaş qrupundakı uşaqlar daha çox fiziki və duyğu təcrübələrindən faydalanırlar.

Hədiyyə seçərkən təhlükəsizlik amili də nəzərə alınmalıdır. Kiçik hissələri olan oyuncaqlar kiçik uşaqlar üçün uyğun deyil, çünki boğulma riski yarada bilər. Həmçinin, sərt və ya iti kənarları olan oyuncaqlardan qaçınmaq lazımdır. Uşağın təhlükəsizliyi həmişə prioritet olmalıdır, ona görə də məhsulların yaşa uyğunluğu, material keyfiyyəti və təhlükəsizlik standartlarına uyğun olub-olmaması yoxlanılmalıdır.

Uşağın maraqlarını və şəxsi üstünlüklərini nəzərə almaq düzgün hədiyyə seçməyi asanlaşdırır. Bəzi uşaqlar incəsənət, rənglər və yaradıcılıqla maraqlanır, bəziləri isə elmi kəşfiyyat və ya idmanla maraqlana bilər. Ona görə də hədiyyə seçərkən uşağın maraqları nəzərə alınmalı və onu həvəsləndirən, araşdırma həvəsini qidalandıran məhsullara üstünlük verilməlidir. Məsələn, elmlə maraqlanan uşağa eksperiment dəstləri və ya robot dəstləri hədiyyə edilə bilər, incəsənətə maraq göstərən uşaq üçün isə rəsm dəstləri, yaradıcı oyuncaqlar və ya bədii fəaliyyətləri ehtiva edən dəstlər alına bilər.

Hədiyyə seçərkən uzunmüddətli istifadəni təklif edən məhsulların seçilməsi də çox önəmlidir. Tez darıxacaq oyuncaqlar yerinə uşağın uzun müddət maraqla oynaya biləcəyi və ya təkrar-təkrar istifadə edə biləcəyi hədiyyələr seçilməlidir. Maarifləndirici oyunlar, stolüstü oyunlar və ya puzzle bu cür uzunmüddətli istifadə üçün ideal ola bilər. Bundan əlavə, yeni il hədiyyəsi olaraq alınacaq məhsul həm maarifləndirici, həm də əyləncəli olmaqla, uşağın xoş vaxt keçirməsinə şərait yaradır və öyrənmə prosesinə töhfə verir.

Nəhayət, xüsusi hədiyyə ideyaları axtaranlar uşağın inkişafına töhfə verəcək yaradıcı və maraqlı məhsullara müraciət etməlidirlər. Yaradıcı oyun dəstləri, elmi dəstlər və ya təxəyyülü dəstəkləyən fəaliyyətlərdən ibarət məhsullar uşağa əyləncə verməklə yanaşı, həm də onun şəxsi inkişafına müsbət töhfələr verir. Yeni il ərəfəsində uşaqlar üçün hədiyyələr seçərkən ən yaxşı yanaşma onların inkişaf ehtiyaclarını və şəxsi maraqlarını nəzərə almaq və həm təhsil, həm də əyləncəli təcrübə təqdim edəcək məhsullara diqqət yetirməkdir.

*Ayşən Vəli*

*PSİXOLOQ AÇIQLADI*

# Təyyarə qəzaları insan psixologiyasında NƏLƏRƏ SƏBƏB OLUR?





”Təyyarə qəzası kimi ağır hadisələr insanların psixologiyasında dərin izlər buraxa bilər. Bu cür travmatik hadisələr insanda əsasən posttravmatik stress pozuntusu yarada bilər”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Zeynəb Eyyubova deyib. Onun sözlərinə görə, belə hallarda müşahidə olunan əsas psixoloji təsirlər bunlardır:

**1.** Qəza zamanı yaşanan qorxu hissi uzun müddət yadda qalır və xüsusilə uçuşlardan qorxu kimi fobiyalar yarana bilər.

**2.** Qəza ilə bağlı görüntülər insanın beynində təkrar-təkrar canlanır, bu isə onun gündəlik həyatına mənfi təsir göstərir.

**3.** Yuxuya getməkdə çətinlik, tez-tez oyanmaq və ya kabuslar görmək kimi problemlər müşahidə olunur.

**4.** Günahkarlıq hissi - ”Sağ qaldım, amma başqaları həyatını itirdi” düşüncəsi ilə yaranan emosional yük.

**5.** İnsanlar özlərini sosial əlaqələrdən uzaqlaşdıraraq təkliyə çəkilməyə meylli ola bilərlər.

Travma ilə mübarizədə vaxtında göstərilən psixoloji yardım çox böyük əhəmiyyət daşıyır. Belə hallarda istifadə edilə bilən metodlar bunlardır:

- Fərdi terapiya - Psixoloqla fərdi seanslar vasitəsilə şəxsin emosional vəziyyəti stabilləşdirilə bilər.
- Qrup terapiyası - Oxşar hadisələri yaşayan insanlarla qrup terapiyası şəklində dəstək effektiv olur.
- Relaksasiya texnikaları - Meditasiya, nəfəs məşqləri və idman narahatlığı azaltmaqda yardımçı ola bilər.
- Davamlı dəstək - Uzunmüddətli müşahidə və dəstək şəxsin normal həyata qayıtmasını təmin edir.

Ailələri də burda dəstək olmalıdır.

Təyyarə qəzası keçirmiş şəxslərin yaxınları aşağıdakı addımları atmaqla onların sağalma prosesinə dəstək ola bilərlər:

- Şəxs üçün səbirli və anlayışlı olmaq vacibdir. Travma ilə mübarizə zaman tələb edir və yaxınlar səbir göstərməlidirlər.
- Ətraf mühit şəxsin özünü rahat hiss edəcəyi formada olmalıdır.
- Əgər şəxs travmanın təsirlərini özbaşına idarə edə bilmirsə, psixoloqa müraciət etməsi çox vacibdir.

Təyyarə qəzası kimi travmatik hadisələr insan psixologiyasında dərin təsir buraxır. Belə hallarda həm psixoloji dəstək, həm də ailənin dəstəyi insanın sağalma prosesində əhəmiyyətli rol oynayır. Psixoloq kimi əsas məqsədimiz bu şəxslərin emosional yükünü yüngülləşdirmək və onların yenidən normal həyata qayıtmasını təmin etməkdir. Biz də mərkəz olaraq bu qəzada yaralanan şəxslərə psixoloji dəstək və kömək ola bilərik”.

*Ayşən Vəli*

# “Prezidentimiz hər zaman idmançıların yanında olub”

## İDMANÇILARIN FİKİRLƏRİ








***Məlumdur ki, Prezident İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxış edib. Ölkə başçısı çıxışında 2024-cü ilin Azərbaycan idmanı üçün uğurlu olduğunu, Azərbaycan idmançılarının beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etdiyini, 1700-ə yaxın medal qazanıldığını bildirmişdir. Bəs, ölkəmizdə idman hansı səviyyədə inkişaf edib? İdmançılar bu barədə nə düşünür? SİA onların fikirlərini öyrənib.***

”Paris-2024” Yay Paralimpiya Oyunlarında paracüdo üzrə yarışlarda bürünc medal qazanmış Azərbaycan idmançısı İlham Zəkiyev: ”Azərbaycan cənab Prezident İlham Əliyevin yürütdüyü siyasət nəticəsində bütün dünyada idman ölkəsi kimi tanınır. 2024-cü il də Azərbaycan idmanı və idmançıları üçün çox uğurlu il oldu. İdmançılarımız ölkəmizi layiqincə təmsil edib vətənə medallarla döndülər. Azərbaycan bayrağı böyük bir arenada dalğalandı. Bundan başqa, Avropa Çempionatlarında da bayrağımız dəfələrlə zirvəyə qalxmış, himnimiz səslənmişdir. Bu gün Azərbaycanda elə bir yer yoxdur ki, orada olimpiya kompleksi olmasın. Mən bütün gənclərimizi çağırıram ki, idmanla məşğul olsunlar, sağlam olsunlar. Çünki sağlam gələcək, sağlam gənclik deməkdir. Onlar idman növünü düzgün seçsinlər, olimpiya idman növləri ilə məşğul olsunlar.

Prezident hər dəfə ilin yekunu və yarışdan sonra idmançıları mükafatlandırır, onları ordenlə təltif və evlə təmin edir. Bu da yeni idmana başlayanlar üçün stimuldur. Allah Prezidentimizi qorusun! Bizim Prezidentimiz hər zaman idmançıların yanında olub. Allah xalqımızı, millətimizi qorusun. Bu gün Azərbaycan idmançıları bütün dünyada tanınır və arzuolunmaz rəqibə çevriliblər. Allah üçrəngli bayrağımızı dalğalandıran idmançılara kömək olsun. Prezidentimiz də bizi hər zaman dəstəkləyir, uğurlarımızı izləyir. Bunun da nəticəsində idmançılarımız yüksək nailiyyətlər qazanırlar”.

Qadın karateçilərdən ibarət Azərbaycan yığmasının baş məşqçisi Şahin Xudaverdiyev: ”Mən bu il ilin yekununa görə cənab Prezident tərəfindən evlə mükafatlandırıldım. Hər zaman olduğu kimi ölkə Prezidenti öz qayğısını idmançılardan əsirgəmir və idmanın inkişafında böyük dəstəyi var. İdmançılar hər zaman Prezidentimizin nəzərindədir. Ölkənin idman siyasəti dövlət siyasətinin bir qoludur. Bu da Prezidentin təşəbbüsü ilə yaradılmış bir siyasətdir. Bizim idman dünyada öz sözünü deyir. İdmanın inkişafında bilinir ki, burada cənab İlham Əliyevin böyük əməyi var.

Biz də çalışırıq ki, dünya arenalarında bayrağımız dalğalansın, himnimiz səsləndirilsin. Biz birlikdə güclüyük və möhtəşəm Prezidentin siyasətinin davamçılarıyıq. Dünyada öz sözümüzü deyirik. Bunun qarşılığında hər bir idmançı mükafatlandırılır. Ölkə başçımıza minnətdaram. Gələcəkdə də dünya arenasında öz idmançılarımı qalib kimi çıxarmağa çalışacağam”.

***Ayşən Vəli***

---

## MÜNASİBƏT

# Azərbaycanda geyim marketinqində nəyi təbliğ edirlər?





”Ümumiyyətlə, Azərbaycanda müstəqilliyimizi ikinci dəfə bərpa edəndən sonra bir çox sahələrdə olduğu kimi paltar, geyim, davranış mədəniyyətində də dövlətin verdiyi azadlıq, sərbəstlik çox səhv anlaşıldı və daha çox liberal, hətta radikal dəyişikliklərə aparıb çıxardı”. Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, www.kitabxana.net - Mir Cəlal Paşayev adına Milli Virtual-Elektron Kitabxananın təsisçisi, Prezident təqaüdçüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

O bildirib ki, Sovet dövründə hər bir sahənin adamları məktəbdən tutmuş, hətta din xadimlərinə qədər, universitet müəllimlərinə qədər həm xüsusi formaları vardı, həm də onların geyiminə dövlət orqanları nəzarət edirdi: ”Əlbəttə, biz bu totalitar nəzarət sistemindən imtina etmişik və ona geri qayıtmaq istəmirik. Amma bu heç də o demək deyil ki, insanlarımız istər davranışında, istər digər şeylərə münasibətdə, istərsə də geyim mədəniyyətində radikal dəyişikliklərə gedib çıxsınlar. Bəzən Azərbaycanın paytaxtında gəzəndə nəinki yava gəzən qadınlar və yaxud kişilər, hətta mədəni ailədən olan uşaqlar, gənclər, cavanlar, hətta yaşlı qadınların geyiminə fikri verəndə adamı dəhşət bürüyür. Əslində, məhz bu tələbatdan irəli gələrək qeyim mağazaları, supermarketlər, hətta Binə və Sədərək ticarət mərkəzləri belə artıq bizim milli, mental dəyərlərə nisbətən cavab verən, nisbətən qapalı, bağlı paltarlar, qeyimlər deyil, açıq-saçıq, hətta kəsimi çox yüksək olan cırıq deşikləri az qala alt paltarını göstərən paltarları dəba halına gətirdi və ümumi satışa buraxdı. Bir nəfər başdan psixoloji problemi olan müğənni bunu geyinir, yaxud geyindirirlər, adiləşir, ümumiləşir. Gənclərimiz, yeniyetmələrimiz, uşaqlarımız buna baxırlar, o dəqiqə həmin paltraları geynməyə başlayırlar. Ən dəhşətli hal odur ki, atalar, analar, nənələr, babalar belə gənclərin bu tipdə, həm milli-mental, həm sağlamlıq, həm gələcəkdə ata-ana olmaqla bağlı fərdin bioloji xüsusiyyətlərinə qarşı dəhşətli dərəcədə, sağlamlığına qarşı dəhşətli dərəcədə zərbələr vurulan bu tipli geyimlərin alınmasına və nəvələrinin, uşaqlarının geyimləsinə belə şərait yaradırlar. Onları həvəsləndirir, pensiyasından kəsib onlar üçün cırıq şalvarlar, həddindən artıq qabarıq bədən cizlilərini göstərən paltarlar alırlar və bununla da sanki fəx edirlər. Biz yalnız müğənnilərin üstündə düşmürük, elə toylarımızda belədir, yaslara gedən və başını bağlayan xanımlarımızın böyük əksəriyyətinə baxın. Əgər tələbat varsa, çox güman ki, ona uyğun da bazar olacaq, bazar formalaşacaq.

Digər tərəfdə ağrılı məsələlər var ki, bunlar da dövlət qurumları, Səhiyyə Nazirliyinin əlaqədar orqanları oturub düşünməli, fikirləşməlidir. Dini komitə var, ailə komitəsi var, hətta Gənclər və İdman və Mədəniyyət Nazirliyi, Təhsil Nazirliyi bununla bağlı bir ekspert komitəsi yaratmalıdır. O ekspertləri havayı yox, qərarlı işlətməlidirlər, onlar tədqiq eləməlidirlər. Araşdırma məzkəzləri, institutlar var ki, illərdir bomboş oturub, heç bir işlə məşğul deyildir, onlara tapşırıqlar vermək lazımdır. Onlar da sosioloji araşdırmaları aparmalıdır ki, insanlarımız niyə soyunur, nə için soyunur və əgər soyunursa, bu ümumi etiket qaydasına çevrilirmi? Etiket qaydasıdırsa, paltar, geyimin də buna uyğun olaraq bazara çıxarılması normal qəbul edilməlidir, yoxsa hər kəs öz yaxınının paltarına diqqət getirmək bir söz demir, qorxur, çəkilir, amma qıraqdakıların paltarına o dəqiqə barmaq göstərirlər. Bu davranış normaları, dünyagörüşün dəyişilməsi, həyata baxışın dəyişilməsini biz ya qəbul etməliyik, ya da ki, bunlardan imtina etməliyik.

Geyim terroru deyilən bir ifadə var. Müəyyən geyimlərlə inkişaf etməkdə olan xalqları, dövlətlərin əhalisini, cəmiyyətin sağlamlığına, demoqrafik məsələlərinə, gələcəkdə artımına təsir edən çox böyük qüvvələr də var, mövcuddur və bizim insanlar da bilə-bilə, ya bilmə-bilmə o paltarları geyinirlər, o paltarlardan istifadə edirlər. Hələ o paltarların kimyəvi tərkibini biz demirik, satış yerlərindən alıb birbaşa əyninə geyinib, toya gedib, o paltarlarda toz hissəcikləri olur, onlar yeməyə oturur və s. Bunların o qədər böyük problemləri var. Səhiyyə Nazirliyində həkimlərlə bağlı çepe və tutulanlar və digər bu tipli qamaqallı hadisələr zaman görürük ki, dövlətin həvalə etdiyi, maaş verdiyi, kabinet ayırdığı, katibə verdiyi, işçilər verdiyi qurumlar heç də öz yerində deyillər və onlar işləmək istəmirlər. Ona görə də media onlara yox, çünki onlar, onsuz da, cavab verməyəcəklər. Media məcburdur, kulturologa, ekspertə, tanıdığı adamlardan bu barədə fikir soruşmağa, sorğu verməyə”.

”Yaxın gələcəkdə bununla bağlı çox böyük problemlər yaranır. Biz bəzən deyirik ki, niyə Azərbaycanda və dünyada bu qədər eyni cinsi nikahlara, sevgilərə meyilli, qız olub, oğlana oxşayan, oğlan olub, qıza oxşayan insanların, transların yaranması nə üçün oldu birdən-birə? Bu, birdən-birə olmur. Bir hissəsi geyimlə, bir hissəsi işsiz və hərəkətsiz yaşam tərzilə, bir hissəsi yeməklə, bir hissəsi energetik içkilə, birhissəsi fasfutla və bir hissəsi sosial şəbəkələrdən gələn psixoloji, kitab, informasiya vasitələrindən gələn psixoloji dəhşətli sarsıntılarla bu insanların bioloji şifrələri dağıdılır və o insanlar yavaş-yavaş özünün ilkin varlığından, qadın olaraq qadın kimi, kişi olaraq kişi kimi ilkin varlıqlarından uzaqlaşırlar. Bu məsələdə geyimin də xüsusi rolu var. Düzdür, indi biz çöldə piyada gəzmirik, əkin eləmirik və yaxud at üstündə gəzmirik,amma nənələrimiz qat-qat niyə tumanlar giyiniblər, rəngbərəng paltarlar geyiniblər. Paltarı paltarın üstünə geyinirdilər ki, bədən və dərini qorusunlar. Bunları indi biz eləyə bilirikmi? Üstəlik də ən axırıncı bazar nəyi tələb eləyirsə, ona uyğun da bazar, daha doğrusu, insanlar nəyi tələb eləyirsə, ona uyğun da bazar formalaşdırılacaq. Yaxın vaxtlarda güman ki, biz bunun çox böyük ağrılarını hiss edəcəyik. Əgər biz istəmirik ki, geyimlə bağlı bizi məhv eləsinlər, öz tirkataş, paltar, geyim sənayemizi yaratmalı, gücləndirməliyik. İnsanlar Çindən, Türkiyədən, Türkmənistandan gələn, bizə aid olmayan, bizim mentalitetimizə zidd olan paltaları yox, məhz öz paltarlarımızı geyinə bilsinlər. Gələn baxaq, şəhərə çıxaq, görək nə qədər milli paltarlar satılan yerlər var. O milli paltarlar səliqəli tikilib, yeni səliqəli tikilib, dəbə uyğundurmu, ilin rənginə uyğundurmu? Yox, bunların heç biri olmur, amma ancaq başlayırıq ya xaricdən gələn paltarları alıb geyinməyə, ya da ki, tənqid etməyə. Amma real yolları göstərənlər olmur” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# Kanadanı necə ram etməli?

## *Yaxud Tramp siyasətdə stereotipləri necə pozur?*



Trampın ərazilərin əldə edilməsi ilə bağlı fikirləri bu fikri açıq şəkildə ifadə edir: dövlət suverenliyi hər kəsin inanmağa adət etdiyi kimi, formal statusdan daha çox şey deməkdir. Donald Trampın yenidən ABŞ prezidenti seçildikdən sonra dünya siyasətində gördüyü ən çox diqqət çəkən şey Kanadanı ilhaq etmək, Qrenlandiyanı almaq və ya Panamadan onun adını daşıyan məşhur kanalı tələb etmək istəyi ilə bağlı hər kəsi həyəcanlandıran açıqlamalar olub. Bu, artıq hökumətlərin cavab bəyanatlarının, internetdə çoxsaylı zarafatların və hətta düşünülmüş şərhlərin mövzusuna çevrilib.




Əksər müşahidəçilər bu cür "yanaşmaları" ciddi danışıqlara başlamazdan əvvəl həmsöhbətləri emosional olaraq qeyri-sabitləşdirmək cəhdləri kimi qiymətləndirirlər - bu fərziyyə, Trampın fikrincə, Amerikanın enerji resurslarını aktiv şəkildə satın almayan Avropa İttifaqına qarşı iddialarla təsdiqlənir. Bütün bunların içində, əlbəttə ki, geniş ictimaiyyət üçün əyləncə elementi var: hamımıza fövqəldövlətlər arasında yeni mübarizə raundunun ərəfəsində mat qalmadan, bizi təbəssüm etdirən xəbərlər lazımdır. Bunun üçün təbii ki, Trampa xüsusi təşəkkürlər. Bununla belə, istisna etmək olmaz ki, Trampın ərazilərin əldə edilməsi ilə bağlı fikirləri sadəcə olaraq onun mürəkkəb ideyanı aydın ifadə etmək bacarığını göstərir: dövlət suverenliyi hər kəsin inanmağa adət etdiyi kimi, formal statusdan daha çox şey deməkdir. Müstəqillik hüququ isə beynəlxalq siyasətdə qəbul edilmiş qavrayış norma və modellərindən daha çox şey tələb edir. Üstəlik, dövlətlərin öz hərbi gücü istisna olmaqla, demək olar ki, hər şeyin sadəcə olaraq qurulmuş bir stereotip ola biləcəyi bir dövrdə.

Hələlik Kanada, Qrenlandiya və ya Meksikanı ABŞ-ın bir hissəsi kimi təsəvvür etmək demək olar ki, mümkün deyil. Ancaq yaxın gələcəkdə kifayət qədər ciddi düşünməli olacağımızı da istisna etmək olmaz: bunu təkbaşına təmin edə bilməyən dövlətlər niyə öz suverenliyini qoruyub saxlayır? İndi bunun daha ciddi səbəbləri var. Belə bir oyunu təkcə amerikalılar oynaya bilməz.

Bütün qayda və normaların cəhənnəmə getdiyi bir vaxtda diqqət istər-istəməz dövlətlərin yeganə möhkəm bünövrəsini təşkil edənə - əraziyə yönəlir. Amma ölkələr arasında münasibətlərdə buna nəzarətdən daha konkret bir şey yoxdur. Üstəlik, sərhədlərin toxunulmazlığı, ümumiyyətlə, dünya siyasəti üçün çox yeni ixtiradır. Tarix dərsliklərindən bilirik ki, dövlətlər əsrlər boyu öz aralarında məhz ərazilər uğrunda müharibələr aparıblar. Bu, məntiqlidir - torpaq, onun üzərində yaşayan insanlar kimi, ən vacib resursdur. Müharibə, iqtisadi inkişaf, demoqrafik problemlərin həlli və daha çox şey üçün lazımdır. Ötən əsrin ortalarına qədər bütün silahlı münaqişələr dövlət sərhədlərinin dəyişdirilməsi ilə başa çatdı - bu, faktdır.

Üstəlik, hər bir xalqın dövlətçilik hüququna malik olması ideyası yalnız 20-ci əsrdə dünyada istifadə olunmağa başladı. Bu nəzəri ixtiranın müəllifləri rus bolşevikləri və 1913-1923-cü illərdə ABŞ prezidenti Vudro Vilsondur. Onların niyyətləri bəlli idi: hər iki tərəf böyük Avropa imperiyalarına qarşı vuruşur və onları məhv etməyə çalışırdı. Amerikalılar üçün xalqların qeyd-şərtsiz dövlətçilik hüququ ideyası öz güclərini genişləndirmək üçün bir vasitə idi. Avropada imperiyaların xarabalıqlarından inanılmaz sayda kiçik və zəif ölkələrin meydana çıxması Amerikanın xarici siyasəti üçün güclü rıçaq yaratdı: xalqlarının taleyi üçün məsuliyyət daşımadan öz elitalarını satın almaq imkanı.

ABŞ və Avropa öz təsirlərini saxlamaq üçün dünya siyasətində əsas şeyin ərazi deyil, oyunun qaydalarını müəyyən edəcəklərini, eyni zamanda bu qaydaların olması fikrini yaymağa başladılar. İkinci Dünya Müharibəsindən sonra Avropanın müstəmləkəçi dövlətləri - İngiltərə, Fransa, Almaniya, Hollandiya, Belçika və İspaniya tarixin zibil qutusuna atıldı. Onların keçmiş müstəmləkələri müstəqillik əldə etdilər, lakin əksər hallarda bunu təkbaşına təmin edə bilmədilər və böyük dövlətlərin - SSRİ və ya ABŞ-ın dəstəyinə arxalandılar. Yalnız ən böyüyü - Çin və ya Hindistan - gələcəyi özləri qura bilər. Baxmayaraq ki, onlar həm də SSRİ-dən, sonra isə Qərbdən birbaşa sərmayə şəklində böyük yardım aldılar. Digər hallarda böyük əksəriyyətində formal müstəqil dövlətlərin taleyini onların özləri müəyyən etmirdi. Və yalnız indi dünya çoxluğuna çevrilmə prosesi dünyanın yarısını öz qərarlarında az-çox suveren edir. Amerikalıların BMT və digər beynəlxalq təşkilatları getdikcə daha çox sarsıtmasının səbəbi, xüsusən də budur - onlar öz iştirakçılarının səsləri üzərində nəzarəti itirirlər. Hələlik bu nəzarət böyükdür: biz bunu BMT Baş Assambleyasında bəzi səsvermələrin nəticələrindən görürük. Amma getdikcə azalır. Əsas səbəb Qərbin daha zəif dövlətlərin taleyi üçün məsuliyyət daşımadan, onlara "əl nəzarəti" həyata keçirmək imkanlarının zəifləməsidir.



ABŞ və Avropanın resursları böyük olsa da, maddi rifahı tamamilə kənar yardımdan asılı olan bir çox ölkələrin dünya siyasətində olması, müxtəlif formalarda: azad ticarət sazişləri, ümumi iqtisadi zonalar və ya BVF və ya Dünya Bankının dəstək proqramları son dərəcə faydalı idi. Tədricən neoliberal dünya iqtisadiyyatı bu prinsipi zahirən çiçəklənən ölkələrə şamil etdi. Məsələn, büdcəsi tamamilə ABŞ-la xüsusi iqtisadi əlaqələrindən asılı olan Kanadanı göstərmək olar. Əgər ölkə öz gücünə arxalanaraq inkişaf edə bilmirsə, öz dövlət qurumları şəklində bütün "bədən dəstinin" mənası ilə bağlı ağlabatan sual yaranır. Belə şəraitdə hamılıqla tanınan suverenlik onsuz da tamamilə asılı olduqları şəxslərlə sövdələşmək üçün istifadə edilən elitaların əlində alətdən başqa bir şey deyil. Kanadanın tamamilə ABŞ-a tabe olmasına heç kim şübhə etmirdi, lakin onun müstəqilliyi ötən əsrdə yaradılmış ritualları çərçivəsində zəruri hesab olunurdu. Və təbii ki, yerli hakim dairələr tərəfindən icarə haqqının çıxarılması mexanizmi kimi. İndi Trampın mülahizələri bu vəziyyətin ümumi absurdluğunu göstərə bilər: müasir dünyada Kanadanın müstəqilliyindən ABŞ üçün faydalar onun saxlanmasına sərf olunan vəsaitdən daha az olur. Hamımız etiraf etməliyik ki, dünya hələ oyun qaydalarının hamı üçün ədalətli beynəlxalq təşkilatlar tərəfindən müəyyən olunduğu istiqamətə doğru getmir. Buna görə də formal olaraq suveren ölkələrin səsi hər il ərazisi və əhalisi şəklində maddi resursdan daha az dəyərli ola bilər. Biz hələ orada "yaşayan" dövlətlərin könüllü razılığı əsasında qlobal qayda və normaların yaradılacağı dövrdən çox uzağıq. Bu, hətta tamamilə yeni beynəlxalq təşkilatların yaradılmasını tələb edə bilər - axı, hətta BMT-ni Qərb ölkələri nisbətən dinc yolla öz soyğunçu maraqlarını təmin etmək üçün alət kimi qurublar.

Yeni, daha ədalətli dünya nizamının qurulması çox onilliklər və böyük səylər tələb edəcəkdir. Yalnız eyni dərəcədə müstəqil və davranışlarına görə məsuliyyət daşıyacaq dövlətlər onu yarada biləcəklər. Buna görə də, hökumətlərin ölkəyə və orada yaşayan insanlara sərəncam vermək hüququna dair maddi sübutlar yaratmağa nə dərəcədə qadir olduğuna dair tələblər istər-istəməz artacaqdır.

Real suverenlik məsələsi gələcəyin beynəlxalq siyasətində ən vacib məsələlərdən birinə çevriləcək. Sadəcə sədaqətini daha yüksək qiymətə satmaq istəyi olan bir atribut kimi tezliklə tamamilə uyğunsuz olacaq. ABŞ-ın gələcək prezidentinin ölkəsinin ən yaxın müttəfiqlərindən birinə münasibətdə bu sualı artıq ən parlaq şəkildə verməsi gülməli və paradoksaldır. Müstəqilliyin formal hüququnun öz maddi ölçüsü var.

**V.VƏLİYEV**



# Alın yazısı: gerçək və təəssüf

**MƏTANƏT**

***Alın yazısından qaçılmaz, deyirlər. Lakin bu deyimi hərəmiz bir cür anlayır və qəbul edirik. Bəzilərimiz bu deyimə inanır, bəzilərimiz isə sözgəlişi deyilmiş bir fikir olaraq qəbul edirik. Lakin məntiqlə yanaşanda, necə olub ki, dünyaya insan gəlib,- fikirləri fonunda alın yazısının da var olması anlayışı heç də təsadüfi ola bilməz.***

Dünyaya insan hansı möcüzəyə əsaslanaraq gəlibsə, hər bir kəs ya xəstəlikdən, ya qəzadan, ya qəflətən və yaxud qocalaraq dünyasını dəyişirsə, deməli, alın yazısı deyilən bir anlayış var və insan övladının həyatı da gözəgörünməz qüvvə tərəfindən o alın yazısına müvafiq hesablanıb.

Bütün bu fikirləri ayın 25-də Aktauda AZAL-ın Bakı-Qroznı reysinin qəzaya uğraması zamanı beynimdən keçirdim. Həyatı qırılan, yarımçıq qalan, hər hansı bir iş, əyləncə, əzizinə baş çəkmək və yaxud xəstəliklə bağlı bir ölkədən digər ölkəyə yolçuluğa çıxan və mənzilbaşına çatan bilməyən insanların başına gələn hadisə ilə bu düşüncələrə qapıldım.

Elə bu zaman da həqiqətən alın yazısının varlığına bir daha inandım və bunun gerçək və qaçılmaz olduğunu özlüyümdə təsdiqlədim. Ona görə ki, gözümüz önündə dəhşətli bir hadisə yaşandı. Və biz o vaxta qədər alın yazısına bəzən inanmırıq ki, bax, belə hadisələr baş verir. Məhz bu an alın yazısı məsələsinə qayıdır və yenidən ona bir nəzər salmalı oluruq.

Təəssüf ediləcək bir hadisə baş verdi xalqımız üçün. Bir gündə, bir saatın, bir anın içərisində 26 vətəndaşımız odun-alovun içərisində həyatını itirdi. Deyirlər, qəza baş verəndə o qədər dəhşətli anlar yaşanır ki... Hələ bu, yerdə deyil, göydə, ucsuz-bucaqsız səmada, yerdən səni minlərlə kilometr ayıran boş bir fəzada baş verirsə, insan övladının cəmi yumruğu boyda olan ürəyi buna necə tab gətirə bilər? Ayaqlarının torpaqdan üzülmüş olduğunu düşünərkən və içərisində olduğun təyyarənin öz məhvərindən çıxıb sağa-sola, yuxarıya-aşağıya doğru qeyri-adi hərəkətlər etdiyini görərkən insanın düşdüyü vəziyyəti düşünmək, hiss etmək bir o qədər çətin deyil.

Deməli, 37-si nəfər Azərbaycan vətəndaşı olan 67 nəfərinin hansı millətə məxsus olmasından, harada yaşamasından, haraya və nə üçün getməsindən asılı olmayaraq onların 38 nəfərinin bir gündə, bir saatda, bir faciəli hadisədə həlak olması onların alın yazısı imiş. 29 nəfərin isə eynilə hansı millətdən, hansı dildə danışmasından, haraya, nə üçün getməsindən asılı olmayaraq bir yerdə olması və yaşanan faciədən salamat qurtarması da onların alın yazısı imiş.

Beləliklə, təyyarədə 67 nəfər - 62 sərnişin və 5 ekipaj üzvü olub. Təəssüf ki, 38 nəfər həlak olub, 29 nəfər sağ qalıb. Göyərtədəki 37 Azərbaycan vətəndaşından 26-sı həlak olub, 14-ü sağ qalıb. Qırğızıstandan olan 3 sərnişinin hamısı sağ qalıb. 16 Rusiya vətəndaşından 7-si həlak olub, 9-u sağ qalıb. Təyyarədəki 6 Qazaxıstan vətəndaşının hamısı həlak olub. Bax, budur alın yazısı. Eyni məkan, eyni zaman, təyyarə qəzası... 67 yolçu və ekipaj üzvü... Sağ qalanlar və həyatını itirənlər... Sağ qalanlardan ağır xəsarət alanlar, yüngül vəziyyətə olanlar... Mənzilbaşına çatmasalar da yeni bir yolçuluğu yaxın gələcəkdə edə bilənlər və gözlərini həyata əbədiyyən yumanlar-arzuları, dilәkləri ilə birlikdə...

Bəli, sözsüz ki, alın yazısıdır, bütün bunlar. Gerçək olan alın yazısı. Bir də təəssüf doğuran alın yazısı. Ölənlərə Allahdan rəhmət diləyir, qalanlara tezliklə sağalmasını, xalqımıza isə bir də belə faciənin baş verməməsi-yaşanmamasını arzulayırıq.

# Həyata: teleskopla, yoxsa mikroskopla?..



Teleskopla, yoxsa mikroskopla...

***Həyat gözəldir, bu, bütün zamanlar üçün dəyişməz qalır. Həyat ilin fəsilləri, fəsillərin illərə çevrilməsi, illərin bizə bəxş etdiyi xoş günlərlə gözəldir. Həyat hər günlə, hər anla gözəldir. Bəli, həyat elə eyni həyatdır, dəyişməzdir. Dəyişən bizlərik. Biz dəyişməklə, həyata bir başqa gözlə baxırıq. Baxdıqca da həyatın dəyişməsindən gileylənirik. Lakin dəyişən bizik, həyat deyil...***

Həyat və biz... Bu gün bu iki anlayışın bir-birinə təması fonunda insanlarda yaranan sevgi və qısqanclıq hisslərindən söhbət açmaq istəyirəm. O hisslər ki, həyatı sevgi ilə ona baxdığımızda sanki teleskopla, qısqanclıq və paxıllıqla baxdıqda isə sanki mikroskopla görürmüş kimi hiss edirik. Belə isə necə edək ki, həyata mikroskopla deyil, teleskopla baxaq?

## "Dünyanı sevgi xilas edəcək" deyənlərə...

Bəli, "dünyanı sevgi xilas edəcək" deyənlərə, alqışlar yağdıraq. Bu, həqiqətən də belədir. Məgər həyatımız sevgi üzərində qurulmayıbmı? Sevgi deyəndə bəzi insanlar yalnız kişi-qadın münasibətlərini nəzərdə tutur, lakin sevgi tək bu deyil. Sevgi elə bizim dünyaya gəlişimizdən başlanır. Bizi dünyaya bəxş edənlərin sevgisindən, sonra bizim həyata, doğmalarımıza, bağça, məktəb müəllimlərimizə sevgimizdən başlayır. Daha sonra bu sevgi biz hiss etmədən hər günümüzdə doğulur. Bunu hiss edə biliriksə, yaşaya bilirik, hiss edə, görə bilmiriksə, özümüz öz həyatımızı məhv edir, pessimizmə qapılır və həyata yalnızca mikroskopla baxa bilirik. Beləliklə də zaman-zaman içimizdə müxtəlif hisslər yaranmağa başlayır: həsəd, paxıllıq kimi... Bu hisslər isə teleskopik baxışları mikroskopik



həddə endirir.

Həyatın gözəlliyini duyduqca, bu gözəlliyə lazımi qiymət verdikcə, insan özü də gözəlləşir, içinə ülvi hisslər dolur. Paxıllıqdan, həsəddən uzaq bir həyat yaşayır. Lakin həyatı görmədən gəldikcə, həyatın gözəlliyini yalnız sosial şəbəkələrdə- kimlərinsə videolarında, şəkillərində axtardıqca, artıq içində sevgidən əsər-əlamət qalmır. O, yavaş-yavaş sosial şəbəkələrdə bu gün olub, sabah yoxa çıxan şəkillər, videolar kimi səni tərk edir.

Belə olanda isə başqa bir düşüncəyə qapılırsan və belə bir sual çıxır meydana: dünyanı sevgi xilas edə biləcəkmi? Axı müasir dövrümüzdə insanların içindəki həyat sevgisi öz yerini həsəd, paxıllıq kimi hisslərə verib, sevgini qovub çıxarır. Bu təqdirdə dünyanı kimlərin sevgisi xilas edə bilər?..

## Həsəd, paxıllıq və qısqanclıq...

Dünya binə olandan bu üç hiss insan övladı ilə birgə addımlamaqdadır. Əvvəl sinif, tələbə yoldaşımıza həsəd aparırıq. Onun kimi niyə təriflənmirik, onun kimi niyə geyinmirik? Bu həsəd istər-istəməz qarşıda paxıllıqla nəticələnir. Paxıllıq isə zamanla içimizə qısqanclıq lövbərini salır. Bu üçmərhələli hisslərin nəticəsi isə ağır olur. Sanki həyatdan əlimizi üzürük. Əlimizdə olanları itirmək hissi ilə yaşayırıq. Bunu sabah quracağımız ailəyə də daşıyırıq. Həyat yoldaşımızı qarabaqara izləyirik, onu kiminsə əlimizdən almasından qorxuruq. Ən yaxın qohumlarımıza, iş yoldaşlarına qısqanırıq. Bu isə ailədə anormal bir vəziyyətə səbəb olur və bununla həyatımız qaranlıqlaşmağa başlayır.

Bütün bu hisslərin müasir dövrümüzdə formalaşmasına isə o qədər optimal şərait var ki... Sosial şəbəkələr bu hisslərin formalaşması üçün, sözün həqiqi mənasında, yelkən açıb. Paylaşılan şəkillər və videolar həyatın gözəlliyi üzərinə pərdə çəkərək ön plana keçib. Müxtəlif səyahətlər, gəzintilər, ad günləri, toy, nişan, xınayaxdı videoları, sevgililərin bir-birilərinə aldıqları hədiyyələrin reklamı bu gün bizi bədbəxtliyə sürükləyən amillərdir. Cəmiyyətimizin yox olmasına hesablanan məqamlardır. Elə bu səbəbdən də sosial şəbəkələrin bəzi halda çox faydalı olduğunu bilsək də, bu cür halları ilə barışa bilmirik. Çünki xüsusilə



gənclərimiz sosial şəbəkələrdən düzgün şəkildə faydalana bilmir. Onlar burada inkişaflarına şərait yaradacaq videolar əvəzinə, dəbli paltarların, fərqli həyatların, toyların, ad günlərinin, maşınların videolarını daha çox izləyir ki, bunun da nəticəsi həsəd, paxıllıq və qısqanclıq hissinin son həddə çatmasına səbəb olur.

## Virtualdan çox vizual

Qeyd etdiyimiz kimi, həsəd, paxıllıq, qısqanclıq hissləri dünya binə olandan insan övladına xas olub. Lakin bu hisslər heç vaxt bugünkü qədər qabarıq şəkildə olmayıb. Bunun da səbəbi indi insanlarda bu hissələri alışdıran vizual aləmin olmasıdır.

Uzaq keçmişə deyil, 30-40 il öncəyə nəzər salaq. İnternetsiz bir aləmdə yaşayırdı insanlar. Sadaladığımız bu hisslərin hər biri ilə oxuduqları kitablarda qarşılaşırdılar. Bu, virtual hiss idi. Kitablardakı həsəd hissli, paxıl, qısqanc obrazları təxəyyülümüzdə canlandırırdıq. Bu obrazları mənfi obrazlar kimi dəyərləndirirdik. Heç vaxt onlara haqq vermirdik ki, düzgün edirlər. Əksinə, onları məzəmmət edirdik. Onlara oxşamamağa çalışırdıq.

Ətrafımızda da bu cür xüsusiyyətlərə malik insanlar vardı. Lakin bu gün cəmiyyətimizdə gördüyümüz insanlardan çox fərqli idilər. Bunun səbəbi sosial şəbəkələrsiz həyat idi. Ozamanki insanların həyatına bu hisslər vizual olaraq yansımırdı. Hər gün, hər gün beyinlərinə hopdurulmurdu. Buna görə də o dövrlə bu dövr arasında böyük fərq var.

İndi bütün yaş qruplarından olan insanlar sosial şəbəkələrdə başqalarının videoları, şəkilləri ilə vizual bir həsəd, paxıllıq, qısqanclıq hissi yaşayır. Bu hisslər hər gün saatlarla sosial şəbəkələrdə gəzişən insanların həyatını alt-üst etməkdədir.

Eyni zamanda, onlarla serialların hər biri də bu hisslərin yaranmasına təkan verir. Sanki elə bil bütün sosial şəbəkələr də, serial və filmlər də insanların həyatını, onların bu gözəl həyata baxışlarını dəyişdirməyə xidmət edir.

## Kimə deyəsən ki...

Bəli, kimə deyəsən ki, belə film, seriallara baxmayın. Bu sosial şəbəkələri az izləyin. Məgər eşidən varmı? Baxmayaraq ki, mətbuat bundan hər gün yazır. Oxuyanlar da var, lakin əməl edənlər necə, varmı? Əlbəttə ki, yoxdur. Çünki oxunanlar hələ dərk edilməmiş yeni videolar, şəkillər gözləri qamaşdırır, oxunanlar da yaddan çıxır.

Sözün açığı, biz sosial şəbəkələrin əsirinə çevrilmişik. Onlar bizi necə istəyirsə, o cür də istismar edir. Sanki bir əsir düşərgəsindəyik. Düşərgə rəhbəri bizi necə istəyirsə, o cür də idarə edir. Səhərdən axşamadək əməyimizi istismar edir, bax, sosial şəbəkələr də belədir.

Sosial şəbəkələr bir maqnit gücü ilə bizi özünə bağlayıb. Nə qədər ayrılmaq istəsək də, ayrıla bilmirik. Nə etsək də, ondan qopa bilmirik. Qopa bilmədikcə də biz bizlikdən çıxıb başqalarına oxşayırıq. Həsəd, paxıllıq hissi "nə edim ki, mənim də olsun" düşüncəsi bizi didib-parçalayır. Qısqanclıqdan od tutub yanırıq.

Kimə deyəsən ki, ay qız, ay oğlan, ay gəlin, ay qadın, ay kişi, bu sosial şəbəkələr sizin axırınıza çıxacaq. Kimə deyəsən? Artıq biz öz həyatımızı demək olar ki, Tiktoka, İntagrama, Fecebooka, Teleqrama, Twitterə qurban vermişik. Bunlar olub həyatımızın ayrılmaz hissəsi. Çörək, su kimi tələbatımıza çevrilib. Telefon əlimizdə harada gəldi, dəqiqədə bir bu şəbəkələrə baş vurmasaq, rahatlıq tapa bilmirik.

Bu günlərdə türk mediasında Tülin Berovanın bu hisslərlə bağlı maraqlı bir yazısını oxudum. Yazıdan bəzi məqamlar: Qısqanclıq xəstəlik kimidir... Əvvələ, qısqanclığın əlamətləri sevdiyiniz insanı itirmək və ya sahib olmaq istədiyiniz şeylərə sahib olmaq istəyi ilə başlayır... Qısqanclıq paxıllıq vəziyyətinə bənzəyir... Bu, insanları müxtəlif şübhələrə salan həsəddir... Sosial şəbəkələrdə paylaşılan paylaşımları və bu şəbəkələrdən intensiv istifadə qısqanclığın getdikcə daha da sürətlə yayılmasına səbəb olur... Ən çox da qısqanclıq sevgi işlərində pis nəticələrlə əlaqələndirilir, kişilər cinayəti törədənləri, qadınlar qurbanı təmsil edir və xəbərlərin çoxu bu yöndə faktlara söykənir.

...Televiziya seriallarının əksəriyyətində qısqanclıq mövzusu incə şəkildə tamaşaçının ruhuna hopdurulur, paxıllıq isə inanmağa hazır olanların beyninə işlənir...

Araşdırmalar deyir ki, qısqanclıq insanları qətllərə sürükləyir. Qısqanclıq fiziki zorakılıq, aqressiv davranışlar, yüksək səslə danışmaq, həmçinin psixoloji təzyiq altında olan insanlarda davranış pozğunluğuna səbəb olur. Özünüzü baxmaqdan saxlaya bilmirsiniz və bir müddət sonra " niyə onun xoşbəxtliyi var, məndə yoxdur" deyərək iqtisadi, sosial və mənəvi baxımdan qısqanclığınızın səsini eşidə bilirsiniz.

... İnstagram hesabları insanların rəqəmsal albomları kimi olub. Köhnə zamanların fotoşəkilləri artıq yayılmır. Yalnız toy mərasimlərində fotoqraflar foto çəkir, sərgiləyir və satmaqla məşğul olurlar.

İzlədiyiniz adamın hesabına daxil olun, bütün paylaşılan şəkillər, əyləncə məkanından tutmuş restorana getmək, bağçada gəzmək, evin balkonunda manqal etmək, şəkillərdə bütün uşaqlar və qonaqlar əlinizin altındadır, böyüdüb-kiçildərək hər şeyi ən xırda detalına qədər görə bilərsiniz... Facebook və Twit-



ter də eyni xidməti təqdim edir... Ən son dəbli paltarlara baxırsınız. Bunlara önəm verənlər var, paxıllıq edənlər var, "yaxşı gündə istifadə edin" deyənlər var, deməyənlər də var ... Xəstəxanaya düşənlər tez sağalsın və mərhumların ailələrinə başsağlığı mesajları, hər gün qeyd etdiyiniz ad günləri, yeni doğulmuşların videoları... Bunlar istər qısqanclıq, istərsə də digər hissləri verir insanlara. Hər kəs də özünəməxsus şəkildə qəbil edir; ya xoş arzularını bildirir, ya bəxtəvərlik verir və sair. Lakin həsəd, paxıllıq, qısqanclıq bunlar arasında ən çox müşahidə ediləndir.

## Həyata baxışımızı dəyişək...

Həyata necə baxarıqsa, ondan alacaqlarımız da elə olacaq, sözsüz ki... Belə isə həyata nikbin duyğularla baxmaq lazımdır. Kiminsə olanına qısqanclıqla deyil, "bir gün mənim də olacaq" arzusu ilə. Bu arzularla da həyata teleskopla baxırsanmış kimi baxmaq lazımdır ki, sevgini ona verə biləsən. Bu sevgi isə əvəzində sənə gözəl bir həyat bəxş edəcək.

Yox, əgər, başqalarına qısqanclıq hissi, gözlərimizi qıyıb mikroskopla baxırmış kimi baxarıqsa, bu zaman həyatdan küsdüyümüz kimi, həyat da bizdən küsəcək. Nəticədə heç nəyin sahibi olmayacağıq.

Belə isə həyata teleskopla baxaq, mikroskopla deyil...

***Mətanət Məmmədova***

# Qərb təzyiq və təhdidlərin ünvanını səhv salıb











BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsi ilə bağlı qərarın yekdilliklə qəbulundan sonra daha da quduzlaşan ABŞ-ın ermənilər tərəfindən maliyyələşdirilən konqresmenləri, Qərbin anti-Azərbaycan dairələri ölkəmizə qarşı informasiya təxribatlarını, təhdidlərini sürətləndirdilər. Hibrid təhdidlərdən, dezinformasiya kampaniyalarından, kiberhücumlardan, iqtisadi blokada xəbərdarlıqlarından, siyasi manevrlərdən, diplomatik təzyiq alətlərindən istifadə etməklə ermənilərə dəstək göstərənlər başqalarını da mənfur niyyətlərinə şərik edirlər. Ağ Evin Bayden administrasiyasının, Qərbin çoxistiqamətli qarayaxma kampaniyalarına baxmayaraq niyyətlərini gerçəkləşdirə bilməyən rəzillər COP-29 uğurla başa çatmasından ikiqat məyus oldular.

Eyni mənbədən qaynaqlanan xəyanətlərini həqiqət kimi qələmə verməyə çalışanlar, özlərinin maraqlarına uyğun hazırladıqları sualları belə manipulyasiya yolu ilə cavablandıranlar heç bir səlahiyyətləri olmayan anti-Azərbaycan ruhlu qeyri-hökumət təşkilatlarından istifadə etməklə ölkəmiz əleyhinə çirkin kampaniya aparsalar da niyyətlərinə çata bilmədilər. COP29-un keçirildiyi ərəfədə AŞPA-nın, Avropa Parlamentinin, ABŞ, Niderland, Fransa və İsveçrə kimi ölkələrin parlamentləri səlahiyyətləri çatmasa belə Azərbaycanın daxili işlərinə qarışmağa çalışsalar da bütün cəhdləri boşa çıxdı. ABŞ Konqresində anti-Azərbaycan çıxışları ilə ermənilərin dostu adlandırılan, ölkəmizə qarşı qətnamələrin qəbulunda canfəşanlıq edən, həyat yoldaşı erməni əsilli olan, çıxdaş siyasətçi kimi ortada quyruq bulayan Bob Menendes kimi başqalarının da xəyalları suya düşdü.

Azərbaycanda guya "insan hüquqlarının pozulması" ilə bağlı qəbul olunan qətnamələrin eyni mənbədən qaynaqlandığının sübuta ehtiyacı yoxdur. "Human Rights Watch" və "Freedom House" kimi korrupsiyalaşmış təşkilatlardan istifadə etməklə ölkəmizə qarşı informasiya cəbhəsi açanların oxşar tezislərində yer alan müharibə cinayətləri törədənlərin, qatı separatçıların azadlığa buraxılması kimi təhdidlərin heç bir əsasının olmadığını həmin qulbecələr daha yaxşı bilirlər. Niderland Parlamenti Nümayəndələr Palatasının üzvləri, erməni lobbisinin maliyyələşdirdiyi İsa Kahraman və Don Sederin müəllifi olduqları iki anti-Azərbaycan qətnaməsi də əvvəlkilərlə eynilik təşkil edir. Təxribatlarının "təsir gücünü" artırmaq üçün kampaniya halında fəaliyyət göstərən, mənzil qərargahı Nyu-Yorkda yerləşən "Human Rights Watch" kimi təxribatçılardan istifadə edən ABŞ-ın satılmış konqresmenləri Azərbaycan əleyhinə 65-dən artıq yazı ilə təxribatlarını davam etdirirlər Təşkilatın İdarə Heyətinin həmsədri Emi Raonun erməni əsilli Ruben Vardanyanın Avropadakı şirkəti ilə əlaqəsini xatırlatmaqla məsələnin mahiyyətini açıqlamağa ehtiyac duymuruq. Bu arada NATO-nun sabiq Baş katibi Adres Foq Rasmussenin "Rasmussen Global" şirkəti və onun rəhbərliyi ilə fəaliyyət göstərən "Ermənistanın dostları şəbəkəsi"nin təxribatlarını da unutmaq olmaz. COP29-la bağlı Azərbaycana qarşı kampaniyada fəal iştirak edən həmin şirkətin əməkdaşları erməni lobbisi ilə yaxından əlaqə saxlayırlar. Məqsəd dünya miqyasında dəstək əldə etməklə, petisiyalar və məktublar formasında Azərbaycana təzyiq mexanizmlərini sərtləşdirməklə, müxtəlif rəsmiləri, özəl təşkilatları və media qurumlarını çirkin əməllərinə cəlb etməklə ölkəmizə qarşı kütləvi hücumlar təşkil etməkdir. Sadəcə, ölkələrin adlarını və uydurma insan adlarını yazmaqla kütləvilik olduğunu göstərmək istəyənlərin də niyyətləri baş tutan deyil.

Qlobal məsələlərdə neytrallığını qoruyan İsveçrə parlamentini də anti-Azərbaycan təxribatlarına qoşmaqla Ermənistana dəstək göstərən Fransa Prezidenti Emmanuel Makronun niyyəti bəllidir. Bəzi beynəlxalq təşkilatların mənzil qərargahının İsveçrədə yerləşməsindən yararlanmağa çalışan Makronun dəstəklədiyi deputat Eriks Fontobelin müəllifliyi ilə "Dağlıq Qarabağ: Sülh Forumu" adlı bədnam qətnamənin qəbul edilməsi də göstərir ki, müxtəlif istiqamətlərdən Azərbaycana qarşı təxribatlarını davam etdirən Qərbin əlində alət olanları maliyyələşdirən erməni lobbisinin istəyinə uyğun diplomatik korpusun təmsilçilərinin də olması qəbuledilməzdir. Bu baxımdan ABŞ-ın Azərbaycandakı səfirliyinin insan hüquqlarını müdafiəsi adı altında ölkəmizin daxili işlərinə qarışan növbəti bəyanatı Ermənistanın cinayətlərinə haqq qazandırmaqdan başqa bir şey deyildir.

Bir müddət əvvəl Amerika Konqresinin 60 üzvünün Azərbaycana təzyiq göstərilməsi ilə bağlı Dövlət Departamentinin müraciəti olmuşdu. Bu haqsızlığa etiraz edən Milli Məclis üzvlərinin yaydığı müraciətdə haqlı olaraq rəsmi Vaşinqtonla 1997 və 2013-cü illərdə müdafiə məsələləri ilə bağlı imzalanmış müqavilələrə xitam verilməsi, Amerika Birləşmiş Ştatlarının Beynəlxalq İnkişafa Yardım Agentliyinin (USAID) Azərbaycandakı fəaliyyətinə son qoyulmasını tələb edilir. COP29-a ev sahibliyi edən Azərbaycana hansısa məsələni qəbul etdirmək niyyətində olan ABŞ Senatının və Konqresin Nümayəndələr Palatasının bir qrup üzvünün 2024-cü il oktyabrın 3-də bu ölkənin dövlət katibi Antoni Blinkenə göndərdiyi müraciətdə də erməni ruhu duyulurdu. Azərbaycanda "insan haqlarının pozulması, siyasi məhbusların mövcudluğu, Ermənistanı müharibə ilə hədələmə, beynəlxalq hüquqa əməl edilməməsi ilə bağlı" yalan məlumatları əsas gətirən amerikalı senator və konqresmenlərin Bakıya təzyiq göstərmək cəhdləri də baş tutmadı.

Bu kimi iyrənc təzyiqləri, Azərbaycana hərbi yardımların dayandırılmasını nəzərdə tutan "Azadlığı Müdafiə aktı"na bədnam 907-ci düzəlişlə bağlı iradlarını "düşmənçilik siyasəti" adlandıran, ikili standartlar siyasətinə etirazını "Nə qədər ki, onlar Əfqanıstanda qalmışdılar, hər il bu sanksiya Amerika Prezidenti tərəfindən qaldırılırdı. Onlar ki, Əfqanıstandan qaçdılar, - özü də bütün dünyanın gözü qarşısında, - bu sanksiyalar yenidən bizə qarşı tətbiq edildi. Bu nankorluğun dərəcəsi var, yoxsa yox?! Yəni, biz sizə lazım olanda sən bu sanksiyaları aradan qaldırırsan, biz sizə lazım olmayanda yenidən bərpa edirsən, nə üçün?... Ondan sonra da deyirlər ki, gəlin, dostluğumuzu möhkəmləndirək. Hansı dostluqdan söhbət gedə bilər?" sözləri ilə bildirən Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycan torpaqlarını 30 il işğal altında saxlayan Ermənistana qarşı heç bir sanksiyanın tətbiq edilməməsi separatizmə dəstəkdir.

Əksinə, Ermənistanı dəstəkləyənlər bilməlidirlər ki, kəskin ritorika sülhü yaxınlaşdırmır, uzaqlaşdırır. Torpaqlarımız işğal altında qalanda rəsmi Bakıya "Ermənistanla dil tapmalısınız, barışmalısınız, müharibəni uduzmusunuz, bununla barışın" mesajları göndərənlər bu gün qalib Azərbaycana münasibətlərini dəyişmək istəmirlər. Zəfərimizi qəbul etməyən ATƏT-in artıq dəfn olunmuş Minsk qrupunun dili ilə danışanlar, "Bu müharibənin, bu münaqişənin hərbi həlli yoxdur" deyən Qərb hər zaman çirkin əməllərdən istifadə edərək xalqımızı məğlubiyyətlə barışmağa çağırırdı. "Bu işğalı əbədi etmək üçün Fransa və onun kimi Qərb dövlətləri əllərindən gələni edirdilər. Bu ədalətsizliyin dərəcəsinə baxın ki, bizim torpaqlarımızı Ermənistana bağışlamaq istəyən ölkələr bu münaqişənin guya həlli ilə məşğul olurdular. Amma onların əsl niyyəti bizi daim təzyiq altında saxlamaq və bu torpaqları Ermənistana bağışlamaq idi" söyləyən Prezident İlham Əliyev qətiyyətlə bildirirdi ki, bu riyakarlığın, ikiüzlülüyün dərəcəsi olmalıdır.

Amerika Konqresinin ermənipərəst konqresmenlərinin Azərbaycana növbəti sanksiyalar tətbiq etmək üçün Ağ Evə müraciət etməsi, ABŞ-ın Dövlət katibi Antoni Blinkenin Ermənistana züy tutmasının sətiraltı mənası bəllidir. İllərdən bəri hayların xalqımıza qarşı törətdikləri terrorları, soyqırımları, fiziki, ekoloji cinayətləri ört-basdır edərək "nə üçünləri" cavablandırmaqdan yayınan Bayden administrasiyası, Qərb, o cümlədən Fransa Prezidenti Emmanuel Makronun hələ də anti-Azərbaycan təxribatlarını davam etdirmələri "Gəlin sındıran qabın səsi çıxmaz!" məsəlinə bənzəyir.

***Xuraman İsmayılqızı***

# Evdə gizli təhlükə: TAXTA QAŞIQLAR

ARAŞDIRMA

***Osmanlı İmperatorluğundan günümüzə qədər gəlib çatan taxta qaşıqların istifadəsi zərurətdən çox orijinal mətbəx qabı olmasından irəli gəlir. Texnologiya hər keçən gün daha çox inkişaf etdikcə həyatımıza daxil olan metal və hətta silikon qaşıqlar, spatulalar, sanki çoxdan taxta qaşıqla yerini dəyişib.***

Taxta qaşıqların uzunömürlü və gigiyenik olmasını təmin etmək üçün təbii təmizləmə üsullarından istifadə edə bilərsiniz. Kimyəvi inqrediyentlərdən qaçaraq qaşıqlarınızı sadə və təsirli məhlullarla təmizləmək sağlamlığınızı qoruyar və təbiətə zərər verməz.



## Bəs, taxta qaşıqları hansı təbii üsullarla təmizləmək olar?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Taxta qaşıqlara qulluqda təbii üsullardan istifadə etmək mətbəx qablarınızı qoruyur və sağlamlığınıza töhfə verir. Kimyəvi məhsullardan qaçınmaq və təbiətdə olan materiallarla təmizləmək ekoloji cəhətdən təmiz və təsirli bir həll təklif edir. Belə ki, bu sadə üsullarla qaşıqlarınız uzun müddət sağlam qalacaq.



## NİYƏ TAXTA QAŞAQLARI QABYUYAN MAŞINA QOYMAQ OLMAZ?

Taxta qaşıqlar qabyuyan maşında yuyulduqda suyun təsiri altında çatlaya və ya deformasiyaya uğraya bilər. İsti su və yuyucu vasitələr taxta materialın təbii quruluşunu pozaraq qaşığın ömrünü qısalda bilər. Ona görə də taxta qaşıqların əllə yuyulması onları uzun ömürlü və sağlam saxlayır.

## SİRKƏ İLƏ DƏRİN TƏMİZLƏMƏ

Sirkə taxta qaşıqlarda yığılmış kir və bakteriyaları təmizləmək üçün təbii həll təklif edir. Bir qabda sirkə və su qarışığı hazırlamaq və qaşıqları bir neçə saat saxlamaq gigiyenanı təmin etmək üçün təsirli üsuldur. Daha sonra bol su ilə yuyub qurulaya bilərsiniz.

## LƏKƏLƏRİN LİMON SUYU İLƏ ÇIXARILMASI

Təbii ləkə təmizləyicisi olan limon suyu taxta qaşıqlardakı inadkar izləri aradan qaldırmaq üçün istifadə edilə bilər. Qaşıqların səthinə limon suyu sürtmək və 10 dəqiqə saxlamaq kifayətdir. Yuyulduqdan sonra qaşıqların parlaq olduğunu görəcəksiniz.



## KARBONATLA GİGYENİK TƏMİZLƏMƏ

Limon suyu və soda taxta qaşıqların dərindən təmizlənməsi üçün əla təbii məhsuldur. Bir az su ilə pasta hazırlayın və qaşıqların səthinə yumşaq bir şəkildə sürtün. Bu üsul həm təmizləyir, həm də pis qoxuları aradan qaldırır.

## SƏTHİN DUZ İLƏ TƏMİZLƏNMƏSİ

Duz taxta qaşıqların səthindəki yağ qalıqlarının təmizlənməsində təsirli olur. Qaşıqları nəmləndirdikdən sonra onları duzla ovuşduraraq təmizləyə və sonra ilk günkü görünüşünə qaytarmaq üçün yaxalaya bilərsiniz.

## AĞ SİRKƏ VƏ LİMON

Ağ sirkə və limonu qarışdıraraq hazırladığınız qarışım taxta qaşıqların təmizlənməsində çox təsirlidir. Bu qarışıq həm təmizliyi təmin edir, həm də qaşıqların səthində yığılan zərərli maddələri təmizləyir.

## SODA İLƏ DƏRİN TƏMİZLƏMƏ



Soda taxta qaşıqları təmizləmək üçün istifadə edilə bilən təsirli bir materialdır. Qaşıqlarınızı soda qarışığında islatmaqla mikrobları öldürə və onların təbii parlaqlığını qoruya bilərsiniz.

## QURU İSTİLİK İLƏ DEZİNFEKSİYA EDİLİR

Taxta qaşıqların gigiyenasını artırmaq üçün onları bir müddət sobada aşağı temperaturda saxlamaq təsirli ola bilər. Bu üsul qaşıqların üzərindəki nəm və bakteriyaları yox edərək dərin təmizlik təmin edir.

## TƏMİZLƏYİCİ TƏBİİ YAĞLARIN İSTİFADƏSİ

Zeytun yağı və ya kokos yağı kimi təbii yağlar taxta qaşıqların səthini qidalandırır və qoruyur. Qaşıqları təmizlədikdən sonra nazik bir təbəqə ilə yağ çəkərək daha uzun və sağlam edə bilərsiniz.

Bəzi son araşdırmalar göstərir ki, istər ağacdan, istərsə də metaldan hazırlanmış qaşıqlar düzgün istifadə edilmədikdə və təmizlənmədikdə sağlamlığımız üçün böyük təhlükə yaradır.

## TƏHLÜKƏNİ ARTIRIR

Taxta qaşıqlar istifadə olunduqca onların üzərindəki cila sızmağa başlayır və qaşıqlar çatlayır. Çatlamış qaşığın bu nahiyələrində bakteriyalar məskunlaşır və bu bakteriyalar yemək hazırlayarkən yeməyə keçə bilir. Yenə bu qaşıqları yuyucu vasitə ilə yuyanda çatlarda yuyucu vasitə qalır və bu yuyucu vasitələr orqanizmdə zəhərlənmələrə səbəb



ola bilər. Bundan əlavə, cilalanmış qaşıqlardan istifadə edilərkən üzərindəki cila istinin təsirindən zamanla solur və bu cilalar orqa-



nizmə toksik təsir göstərərək xərçəngə səbəb ola bilər.

## CİLALANMAYAN QAŞIQ DAHA SAĞLAMDIR

Taxta qaşıq alarkən boyasız və cilasız taxta qaşıq almaq daha sağlamdır. İstifadə olunmuş taxta qaşıqların çatladığı və ya qırıldığı göründüyü zaman yenisi ilə əvəz edilməlidir. Lakin unutmaq olmaz ki, metal qaşıqlar da rəngini dəyişdikdə, matlaşdıqda və ya cızıldıqda orqanizmdə zəhərlənməyə səbəb ola bilər.

***Ayşən Vəli***

*MÜNASİBƏT*

# Boşanmalar ailə institutuna necə təsir göstərir?

”Ailə institutu cəmiyyətin özəyidir. Bu institut daimi olaraq inkişaf olunur və nəticə olaraq özünə xas olan bir model yaranır”. Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin baş məsləhətçisi Rafiq Mahmudov deyib. O bildirib ki, biz bir neçə əsas ailə modellərini qeyd edə bilərik, bunlar Şərq, Qərb, Asiya və Afrika ölkələrinin modelləridir: ”Ailə modelinin formalaşmasına təsir göstərən isə adət-ənənələr və dindir. Azərbaycanın ailə modeli özündə bir neçə modeli birləşdirir: Şərq, Qərb və Asiya. Bu model uzun illərin inkişafı prosesi zamanı formalaşıb.

Bu gün biz dünyada qloballaşma prosesinin şahidiyik və bu proses təkcə insanların həyat tərzinə yox eyni zamanda ailə institutunun formalaşmasına da təsir göstərir və illərlə formalaşan və cəmiyyətin özəyi olan ailə institutunun qorunması vacib məsələlərdən birinə çevrilib.





Son illər cəmiyyətdə yaşanan yeni bir tendensiya müşahidə olunur və bu tendensiya bizi narahat edir. Bu tendensiya öncədən planlaşdırılmış natamam ailə tendensiyasıdır, hansı ki, ailə institutunun formalaşmasına mənfi təsir göstərə bilər. Bu tendensiya və ya ailə modeli daha çox Avropa ölkələrində müşahidə olunur və onun xüsusiyyəti ondan ibarətdir ki, ailə bir valideyndən ibarətdir və bu da ailədə dünyaya gələn uşağın həm psixoloji, həm də mədəni olaraq formalaşmasında müəyyən boşluqların yaranmasına gətirib çıxardır. Hər bir uşağın tərbiyəsində hər iki valideynin iştirakı mütləqdir, bu uşağın şəxs kimi formalaşmasında eyni zamanda onun psixoloji cəhətdən möhkəmlənməsinə kömək edir.

Bu gün Ailə Qadın və Uşaq problemləri üzrə Dövlət komitəsi ailə institutunun möhkəmlənməsində maraqlıdır, ailə institutu cəmiyyətin özəyi, bünövrəsidir. Onun möhkəmləndirilməsi üçün dövlət tərəfindən müxtəlif tədbirlər həyata keçirilir. Biz komitə olaraq gənclər arasında ailə institutunun gücləndirilməsinə, eyni zamanda erkən nikah, qeyri-qanuni nikahların qarşısının alınması üçün vətəndaşların iştirakı ilə bir çox layihələr, tədbirlər, konfranslar keçirdib yeni qanun layihələri üzərində çalışırıq. Komitənin təkliflərinə əsasən Ailə Məcəlləsində aparılmış son dəyişikliklər ailə institutunun möhkəmləndirilməsinə və cəmiyyətin inkişafına mənfi təsir göstərən neqativ halların qarşısının alınmasına yönəlib. Bildiyiniz kimi, Ailə Məcəlləsinə əsasən, Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunur. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanlarına müraciət edərək nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verilirdi. Ancaq təəssüf ki, bəzi valideynlər bundan sui-istifadə edib yetkinlik yaşına çatmayan övladını ərə verirdilər. Bu kimi halların qarşısının alınması üçün təqdim olunan qanun layihəsinə əsasən, bu hal ləğv edilib.



Digər dəyişiklik isə nikahın bağlanmasına mane olan halların sayının artırılması ilə bağlıdır. Qanun layihəsinə əsasən aralarında nikahın bağlanması yol verilməyən subyektlər dairəsi genişləndirilib. Bu qanun layihəsinin qəbul olunmasına əsas səbəb kimi, qan qohumları arasında bağlanan nikahlar nəticəsində doğulan uşaqlarda genetik xəstəliklərinin olduqca yüksək olmasıdır”.

Onun sözlərinə görə, ailə institutuna mənfi təsir göstərən səbəblərdən biri ailələrin dağılmasıdır: ”Boşanmaların səbəblərinin araşdırılması üçün Komitə tərəfindən 2020-ci ildə 2400-dən çox respondent arasında sorğu keçirilib. Keçirilmiş sorğuda iştirak edən şəxslərin çoxu boşanmanın səbəbləri sırasında aşağıda qeyd edilən faktorları vurğulamışdırlar: xəyanət, uşağın olmaması/sonsuzluq, zərərli vərdişlərə aludə olmaq, sosial şəbəkələr, ailə məsuliyyətini anlamamaq, kənar müdaxilələr, maddi səbəblər və s.

Boşanmaların mütləq əksəriyyəti sosial-psixoloji əsaslardan qaynaqlanır və bu məsələ bir daha ənənəvi ailə dəyərlərinin qorunması və təbliğinin vacibliyini ortaya çıxarır. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq bütün bölgələrdə və paytaxtda ailə və nikah institutunun qorunması, milli ailə dəyərlərinin təbliği, gənclərin ailə həyatına hazırlığı məqsədilə mütəxəssislərin, ağsaqqal və ağbirçəklərin iştirakı ilə maarifləndirmə tədbirləri təşkil olunur, eyni zamanda sosial çarxlar hazırlanır, ailə üzvlərinin birlikdə zaman keçirməsi, valideyn məsuliyyətinin düzgün təbliğ olunması üçün layihələr həyata keçirilir. Nəzərə alsaq ki, nikahın pozulması prosesində cütlüklə yanaşı uşaqlar da olduqca böyük travma alır, bu istiqamətdə hər zaman uşaqlarla da iş aparmaq olduqca düzgün olar. Bütün bunlar nəzərə alınaraq ailələrlə və uşaqlarla işləyən mütəxəssislər üçün Dövlət Komitəsi tərəfindən beynəlxalq ekspertlərin iştirakı ilə təlimlər təşkil edilib.

Dövlət Komitəsi öz fəaliyyətində hər zaman nümunəvi, uzunömürlü ailələrin təbliğatına da geniş yer ayırır. Bu cür təbliğat, nümunəvi ailələrin tanıdılması, digər ailələr üçün bir stimul olur. Problem və çətinliklərlə üzləşmiş cütlüklər 50, 60 ildən çox birgə ömür sürmüş ailələrin həyat hekayəsini oxuyaraq, dinləyərək yalnız irəli addımlamaq və uğurlu ailə həyatını davam etdirmək üçün can atırlar”.

***Söylü Ağazadə***

*EKSPERT İZAH ETDİ*

# Qəzada olan şəxslər necə kompensasiya olunur?

””İstehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulmuş işçiyə və ya bu səbəbdən həlak olmuş işçinin ailə üzvlərinə və himayəsində olan digər şəxslərə ödənclərin verilməsi qaydalarının, şərtlərinin və məbləğinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarına əsasən işçinin istehsalat qəzası və yaxud peşə xəstəliyi nəticəsində sağlamlığı pozulduqda və ya bu səbəbdən həlak olduqda (bundan sonra - istehsalda əmək xəsarəti), bədbəxt hadisənin araşdırılması barədə müvafiq akta əsasən təqsirkar müəssisə, idarə və təşkilatlar (bundan sonra - təqsirkar işəgötürən (təqsirkar müəssisə) işçiyə dəyən zərərə görə qanunvericiliyə uyğun olaraq maddi məsuliyyət daşıyır”. Bu sözləri SİA-ya açıqlamasında Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib.





Fariz Əkbərov sözlərinə belə davam edib: ”Həmin Qərarın 2-ci bəndinə əsasən

- Zərərçəkənlərə və yaxud zərərə görə aylıq ödənc almaq hüququna malik olan şəxslərə ödənclər aşağıdakı vaxtdan verilir:

- Zərər çəkmiş işçilərə - istehsalatda əmək xəsarəti nəticəsində əvvəlki peşə əmək qabiliyyətini itirdiyi gündən;

- İşçinin vəfatı ilə əlaqədar olaraq zərərin ödənilən miqdarını almaq hüququna malik olan şəxslərə - mərhumun vəfat etdiyi gündən, lakin zərərin ödənilən məbləğini almaq hüququnu əldə etdiyi gündən tez olmayaraq.

- İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tariflərinin müəyyən edilməsi haqqında” Nazirlər Kabinetinin 05.11.2010-cu il tarixli, 200 saylı qərarı ilə İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta tarifləri müəyyən olunmuşdur.

Əmək Məcəlləsinin 66-ci maddəsinə əsasən, Vətənin müdafiəsi, azadlığı və ərazi bütövlüyü uğrunda hərbi əməliyyatlarda xəsarət (yaralanma, travma, kontuziya) almış və əlilliyi müəyyən edilmiş işçilər attestasiya olunmur;

Əmək Məcəlləsinin 69-cu maddəsinə əsasən, işçi yaşa, əlilliyə görə əmək pensiyasına çıxdıqda ərizəsində göstərdiyi gün əmək müqaviləsi ləğv edilə bilər; Əmək Məcəlləsinin 91-ci maddəsinə əsasən, orqanizmin funksiyalarının 61-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş işçilər üçün qısaldılmış iş vaxtının müddəti həftə ərzində 36 saatdan artıq olmamalıdır;

Əmək Məcəlləsinin 94-cü maddəsinə əsasən, işçinin səhhəti və fizioloji vəziyyəti (hamiləlik, əlillik), habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə, habelə on dörd yaşına çatmamış, yaxud sağlamlıq imkanları məhdud uşağı olan qadınlara ərizələr ilə işəgötürən natamam iş vaxtı (iş günü, yaxud iş həftəsi) müəyyən etməlidir; icbari sığorta tarifləri müəyyən olunmuşdur”.

***Ayşən Vəli***

# Milad ərəfəsində “diri ölülər”in paradı

## Fransızlar dəyişiklik axtarırdılar, əvvəllər işləməyənlərin təkrarlanmasını yox



Fransada son bir ildə dördüncü yeni hökumət elan edilib. Xüsusilə, təhsil naziri portfelini alan Elizabet Borne Fransua Bayrunun rəhbərliyi altında çalışacaq. İndiki baş nazir vəzifəyə başlamazdan əvvəl də fransızlar arasında populyar deyildi. Lakin onun davamlılığı əsasən Marin Le Pen tərəfdarlarının rəğbətindən asılı olacaq. Yeni hökumətdə bir sıra önəmli şəxslər peyda olur. Bu yaxınlarda Daxili İşlər Nazirliyinə rəhbərlik edən Gerald Darmanin ədliyyə naziri olacaq. Həmçinin, Matignon Sarayı Xarici Ərazilər üzrə Nazirin mövqeyini gücləndirəcək, çünki Parisin sonuncu ilə çətin münasibətləri var. Bu postu keçmiş baş nazir Manuel Valsdan başqa heç kim tutmayıb. Xatırlayaq ki, o, qeyri-populyar sosialist prezident Fransua Ollandın dövründə bu vəzifəni tutub. Lakin sonradan Vals Makronistlərə və Dirçəliş partiyasına qoşulub. 2019-2021-ci illərdə Barselona Şəhər Şurasının üzvü olub. Valls katalan mənşəlidir. Və onun qəfil Bairro kabinetinə gəlişi əsas xəbərlərdən birinə çevrilib.

Valsın işi çox çətin olacaq - Fransa özünün xarici ərazilərində bir sıra münaqişəli



vəziyyətlərlə üzləşib. Məsələn, 2024-cü ildə Yeni Kaledoniyada geniş etirazlar başlayıb. Mayottadakı təbii fəlakətlər və yerli sakinlərdən daha geniş yardım tələbləri Beşinci Respublikanın prezidenti Emmanuel Makronu sözün əsl mənasında qəzəbləndirib, o, emosional şəkildə bildirib ki, əgər Mayotte Fransanın bir hissəsi olmasaydı, onun problemləri daha fəlakətli olardı. Müdafiə naziri Sebastien Lecornu və xarici işlər naziri Jan-Noel Barro öz vəzifələrini saxlayıblar. Mühafizəkar Bruno Retaillo miqrasiya məsələsi ilə bağlı bir sıra yüksək səviyyəli bəyanatlara baxmayaraq, daxili işlər naziri olaraq qalacaq. Raşid Dati mədəniyyət nazirinin portfelini də qoruyacaq.

Yeni iqtisadiyyat naziri Əmanət və Konsiqnasiya Fondunun rəhbəri Erik Lombard olacaq. O, 2025-ci il büdcəsini hazırlamaq problemi ilə üzləşəcək. Məhz bu məsələdə keçmiş Baş nazir Mişel Barnier ”yandı”, ona kompromislərin tapılması və Brexit danışıqlarında böyük təcrübəsi kömək etmədi.

Nazirlər Kabineti öz sağçı oriyentasiyasını saxlayıb, bu, təbii ki, sol qüvvələrə uyğun gəlmirdi. ”Fəth edilməmiş Fransa”nın lideri Jean-Luc M?lenchon, ümumiyyətlə, Bayrounun ”qısdan sağ çıxmayacağını” və büdcə layihəsinə yenidən baxılmadığı təqdirdə yanvarın 16-da istefa verəcəyini təklif edib. Sol qüvvələr ölkə Konstitusiyasının 49.3-cü maddəsindən istifadə etməyə cəhd etsələr, baş nazirə etimadsızlıq səsverməsi elan etməyə artıq hazırdırlar. Lakin ”Milli Mitinq” etimadsızlıq səsverməsinə qoşulmasa, bütün bu təhdidlər reallaşmaya bilər. Keçən dəfə Barnieri aşağı salan da bu oldu. Barnierin kabineti Marin Le Pen ilə məsləhətləşərək formalaşdırılıb. Bu barədə birbaşa danışmadılar, amma sirr deyildi. Bu dəfə də eyni şey olub. Buna əsaslanaraq, Bayrou gələn baş nazirlər üçün 34% rekord aşağı reytinqlə işə başlamalı olsa da, yeni kabinetin dayanmaq şansı var.

Bayrunun ”sağ qalmasının” ”Milli Cəbhə” dən asılı olması faktını keçmiş səhiyyə naziri Xavier Bertrand da təsdiqləyib. O, Bayru hökumətində bu vəzifə üçün müraciət edib, lakin sonuncu, bir gün əvvəl deyib ki, təəssüf ki, bunu təmin edə bilməz. İş ondadır ki, Le Pen buna qarşı çıxıb. Onun və Bertrandın çoxdankı siyasi xalları var: 2015-ci ildə o, Hauts-de-France Regional Şurasının rəhbəri seçkilərində Le Penə, 2021-ci ildə isə partiya yoldaşı Sebastien Çenuya qalib gəlib. Nəticədə o, bu mövqeyini qoruyub saxlayır. Bertran bildirib ki, Bayrunun ona alternativ təklifi var, lakin o, Le Pendən asılı olan kabinetdə işləmək istəmədiyi üçün bundan imtina edib.

### Fransada yeni və köhnə nazirlər

Baş nazir Fransua Bayrunun bazar ertəsi Yelisey sarayında açıqlanan kabinet siyahısı Fransada tənqid fırtınasına səbəb olub. Əsas qınaq: yeni hökumət öz yeniliyi ilə diqqəti çəkən deyil. Böyük ölçüdə o, əvvəlki hökumətlərin fraqmentlərindən ibarətdir. Rəqiblər ağıllarını məşq edirlər. ”Hökuməti Milad ağacının altına qoydular!” - Le Parisien qəzeti yazır. Sosialistlərin rəhbəri Olivye For: ”Milad ərəfəsində bizə diri ölülərin paradı olan Hellouin bayramı təklif olunur. Fransızlar dəyişiklik axtarırdılar, əvvəllər işləməyənlərin təkrarlanmasını yox”. ”Groundhog Day!” - Kommunist Partiyasının katibi Fabien Roussel onu təkrarlayır. Bunlar solçuların səsləridir. Rassemblement National (RN) sədri Jordan Bardella deyir: ”Fransua Bayrou uyğunsuzlar koalisiyasını topladı”.

Buna baxmayaraq, Fransua Bayrunun Fransanın baş naziri təyin olunmasından keçən on gün ərzində o, danışıqlar aparmağa, ilk ziddiyyətləri aradan qaldırmağa və 14 nazir və 21 nazir nümayəndə təyin etməyə nail olub. Hökumətdə heç bir dövlət katibi olmayacaq. Belə görünür ki, baş nazir məsləhətləşmələrdə iştirak etməyən tərəflərin maraqlarını nəzərə almalı olub. Təyin olunduğu gün Xavier Bertrand hökumətə qoşulmayacağını və bunun səbəbkarı ”Milli Mitinq”in təzyiqi olduğunu açıqlayıb. Ona Ədliyyə Nazirliyinə rəhbərlik etmək təklif olunub, lakin tanınmış ”respublikaçı” (LR) ”Marin Le Penin razılığı ilə toplanan hökumətdə iştirak etməkdən” imtina edib. Və ya bəlkə də, onun namizədliyi ifrat sağçılar üçün tamamilə qəbuledilməz olub və Fransua Bayrou özü geri çəkilib və Gerald Darmaninin simasında sübut edilmiş kadrlara müraciət edib.



Bayrunun təcrübə etməmək istəyi və namizədlərin məhdud seçimi məntiqi nəticəyə gətirib çıxarıb. Yeni hökumət heç də yeni görünmür. Dörd ”dövlət naziri”nin əsas vəzifələrində fransızların hökumətin oturacağı Matinyon sarayında görmədiyi bir nəfər də yoxdur. Fransua Bayrunun kabinetinə ondan əvvəlki iki sələf daxil idi: Fransua Ollandın dövründə daxili işlər naziri və baş nazir vəzifələrində çalışmış Manuel Vals və Emmanuel Makronun dövründə hökumət başçısı Elizabet Borne. Biri xarici ərazilər naziri, digəri isə təhsil naziri.

Ədliyyə naziri təyin edilən Gerald Darmanin dörd ildən artıq Jan Castex, Elisabeth Borne və Gabriel Attal hökumətlərində daxili işlər naziri vəzifəsində çalışıb. O, yalnız parlamentdəki işdən qısa müddətə diqqətini yayındırıb. Onun iki nömrəli, Xarici Ərazilər üzrə Naziri Manuel Valls olacaq, indi qasırğadan zədələnmiş Mayotteni bərpa etməli və Yeni Kaledoniya və Qvadelupada etiraz aksiyaları keçirməli olacaq. Son illərdə Daxili İşlər Nazirliyi ilə məhkəmə sistemi arasında davam edən qarşıdurmada Darmaninin gündəlik tərəfdaşı özünü nizam-intizamın fəal tərəfdarı və immiqrasiya əleyhdarı kimi göstərmiş Daxili İşlər Nazirliyinin rəhbəri Bruno Retaio olaraq qalır. İki tərəf arasındakı ittifaq solçu və həddindən artıq solçuları açıq şəkildə narahat edir. Olivier For hiddətlə: ”Həddindən artıq sağ ifrat sağın nəzarəti altındadır”, deyib. Doğru üçün, birləşmə əslində olduqca uğurludur.

### Fransua Bayru necə Fransanın yeni baş naziri oldu?

Demokratik Hərəkat partiyasında Fransua Bayru ilə həmkarı olan Jan-Noel Barrot xarici işlər naziri vəzifəsini davam etdirir. O, Mişel Barnierin əvvəlki hökumətində bu vəzifəni tutmuşdu və fəaliyyətinin qısalığına görə hələ özünü xüsusilə sübut etməyə vaxtı olmayıb. Mədəniyyət naziri Rachida Dati də Qabriel Attalın və Mişel Barnierin baş nazirinin başçılığı altında çalışaraq nazirlikdəki ofisini tərk etməyib. Artıq hakimiyyətin əleyhdarları ona həm sağdan, həm də soldan qara ləkələr göndəriblər. Sosialistlərin lideri Olivye For bəyan edib ki, hakimiyyət və tərəflərin bağlamaq təklif etdiyi ”hücum etməmək paktı”nın heç bir şərti yerinə yetirilməyib və buna görə də solun yenidən gəlməsinə heç bir maneə yoxdur. ”Milli Mitinq” Marine Le Pen tərəfindən təmsil olunan sağ tərəf, Bayrou hökumətindən immiqrasiya ilə bağlı yeni sərt qanunu tez gözlədiklərini və ümumiyyətlə ”əməllərlə mühakimə olunacaqlarını” xəbərdar edib. Reallıq budur ki, kabinetin taleyi RN-nin əlindədir. Sollar etimadsızlıq səsverməsi təklifləri ilə bombalanacaq və sağçılar səsvermədə onlara qoşulan kimi, Mişel Barnierin əvvəlki kabineti dekabrın 4-də düşdüyü kimi, Fransua Bayru da düşəcək. Bir sözlə, hökumətdə və parlamentdə ilin əvvəli sakitlik vəd etmir.

**V.VƏLİYEV**

# Təhlükə anında özünümüdafiə: bacarırıqmı?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb*



***COVID-19 pandemiyasından sonra ellikl ə bir şeyin fərqinə vardıq ki, biz bu cür vəziyyətlərə hazır deylik, müdafiə olunmağı bacarmırıq, ehtiyat tədbirlər barədə məlumatlı deyilik. Pandemiyanın vurduğu sosial, psixoloji, iqtisadi zərərlərin bir çoxu hələ də bərpa olunmayıb. Əgər növbəti dəfə oxşar vəziyyətlə üzləşsək müdafiə olunmağı, vəziyyətdən çıxmağı bacaracağıqmı? Bax, bu, sual altındadır.***



Mütəxəssislər fikirləşir ki, bu cür qlobal pandemiya vəziyyətlərində dünya ölkələri birlikdə virusa nəzarət sistemi yaratmalı və təkmilləşdirməlidir, səhiyyə sistemlərini gücləndirməli və universal sağlamlıq təminatı vədini həyata keçirməlidir. İnkişaf etmiş ölkələr pandemiya ilə mübarizə üçün tibbi ləvazimat ehtiyatı yığdıqda təbii olaraq maddi təminatı zəif olan ölkələrdə bu ləvazimatların qıtlığı yaşandı, bəzi ölkələrdə insanlar adi dezinfeksiya məhlullarını güclə əldə edir və ya ümumiyyətlə əlçatanlıq mümkün olmurdu.

Fövqalədə hadisələr baş verdikdə, təbii fəlakətin olduğunu anladıqda qətiyyən çaxnaşmaya düşməyin və panikaya təslim olmayın. Ətrafınızdakıları da sakit olmağa təşviq edin. Hər hansı bir fövqəladə vəziyyətdə panikaya qapılıb edəcəyimiz şüursuz hərəkətlər ciddi nəticələrə səbəb olur və xilasedicilərin, yanğınsöndürənlərin, tibb işçilərinin və digər mütəxəssislərin işini çətinləşdirir.

Mümkünsə, dərhal hadisəyə uyğun olaraq xilasedicilərə, yanğınsöndürənlərə, təcili tibbi yardıma, yaxud da bir yaxınınıza zəng edin. Qısa və aydın danışmağa çalışın. Hadisənin baş verdiyi yeri dəqiqliklə təsvir etmək daha tez xilas olmağa kömək edir. Əgər hadisənin şahidi olsanız və təhlükədə deyilsinizsə, xilasedicilər, yanğınsöndürənlər və polis əməkdaşları gələnə qədər hadisə yerində qalmağa çalışın və ucadan danışaraq zərərçəkənlərlə əlaqə yaradın. Zərər çəksəniz və ya yaralansanız, yaxud da kiminsə yaralandığını görsəniz ilk yardım göstərin. İlk yardımın vaxtında göstərilməsi ağır nəticələrin qarşısını alır və həyat qurtarır.

Belə anlarda yardım göstərə bilmək üçün zamanında ilk yardım qaydaları barədə məlumatlanmaq lazımdır.

Qəza və ya fəlakət anında mütəxəssislərin, xilasedicilər və yanğınsöndürənlərin, polis əməkdaşlarının, tibb işçilərinin tövsiyələrinə əməl edin. Bu, zərərçəkənlərə vaxtında yardım göstərməyə, ağır nəticələri azaltmağa və ya qarşısını almağa kömək edəcək. Ümumiyyətlə, əksər vaxtlarda insanlar təbii fəlakətlər, fövqalədə hallar zamanı da necə davranacağını, necə qorunacağını bilmir. Əksəriyyət panikaya düşür, bu da başqalarının panikasına səbəb olur, beləcə xaos yaranır. Biz bunu bəzi ölkələrdə baş verən zəlzələlər, sunamilər, uçqunlar zamanı tez-tez müşahidə edirik. Elə iki gün əvvəl Azərbaycan Hava Yollarına aid təyyarədə baş verən qəza anının kadrları yayımlananda da fərqinə vardıq, stüardessanın xəbərdarlığına başqamayaraq insanlar fövqəladə vəziyyətdə belə təhlükəsizliyə əməl etmirlər, kəmərlərini açıb ayağa qalxırlar, təyyarənin dəhlizində gəzirlər.



Bir vacib məsələni də qeyd edək ki, xilasedicilərin, yanğınsöndürənlərin, tibb işçilərinin, polis əməkdaşlarının, ictimai nəqliyyat işçilərinin hərəkətlərinə mane olan və ya əngəl törədən şəraitin yaranmasında çox vaxt sürücülər günahkar olur. Ya yanlış parklama qaydası, ya da hərəkət zamanı zolaqlardan düzgün istifadə etməmək onların hadisə yerinə gec çatmasına və daha çox tələfata səbəb olur.

Fövqəladə hal vəziyyətlərinin müxtəlifliyini nəzərə alaraq deyə bilərik ki, onların hər birinin özünəməxsus xilas mexanizmləri var. Əhalinin təhlükəsizliyini təmin etmək üçün həyata keçirilməli olan tədbirlərin siyahısı da baş verən hadisənin növünə görə təyin edilir. Fövqəladə hallar zamanı insanların müdafiəsi üçün görülən tədbirlərin ümumi qaydası müəyyən edilib ki, buraya həm əvvəlcədən, həm də fövqəladə hadisə baş verdikdə dərhal həyata keçirilən tədbirlər daxildir.

Fövqəladə hal baş verməzdən əvvəl müəyyən ərazidə mümkün fövqəladə halların proqnozlaşdırılması, habelə onların miqyasının qiymətləndirilməsi, fövqəladə hallardan itkilərin azaldılmasına yönəlmiş tədbirlər, görüləcək tədbirlərin planlaşdırılması, yardım üçün qüvvə və vasitələrin hazırlanması, belə hallarda tələb oluna bilən əşyaların ehtiyatının yaradılması, əhaliyə, eləcə də silahlı qüvvələrin şəxsi heyətinə fövqəladə hallarda davranış qaydaları üzrə təlimlərin keçirilməsi də bu tədbirlərdəndir. Təhlükə və ya fövqəladə vəziyyət baş verdikdə isə əgər kontakt vasitəniz varsa vəziyyətin artıq baş verməsi barədə əlaqədar orqanlara, xilasetmə dəstələrinə təcili məlumat vermək lazımdır.

Fəlakət və qəzalardan başqa bəzən elə vəziyyətlər olur ki, ona müdaxilə faciəyə səbəb ola bilər. Misal olaraq, əgər harada isə sahibsiz və şübhəli görünən bir əşya görürsünüzsə ona toxunmayın, yaxınlaşmayın. Əlaqədar qurumları vəziyyətdən xəbərdar etməklə və şübhəli olduğunu hesab etdiyiniz obyektə başqalarının yaxınlaşmasına mane olmaqla təhlükəsizlik tədbiri görmüş olursunuz. Unutmayın, bəzən fəlakət və qəza yox, bu vəziyyətlərdə necə davranacağını bilməmək öldürür.

***Lalə Mehralı***

*EKSPERTDƏN AÇIQLAMA*

# "TikTok-u qadağan edə bilmiriksə, o zaman qanunvericiliklə cəzalar sərtləşdirilməlidir"

"Bildiyiniz kimi, ekspert qismində dəvət aldığım müxtəlif televiziya verilişlərində, sosial şəbəkə platformalarında və saytlarda daim özünü "TikToker" adlandıran şəxslər haqqında sərt mövqeyimi ifadə etmişəm. Mən həmişə cəmiyyətin əxlaqını pozanlara qarşı çıxmışam. Əgər biz sosial şəbəkəni, yəni TikTok-u qadağan edə bilmiriksə və ya senzura tətbiq edə bilmiriksə, o zaman qanunvericiliklə cəzalar sərtləşdirilməlidir". Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib.




Onun sözlərinə görə, bir neçə gün əvvəl Daxili İşlər Nazirliyinin (DİN) milli-mənəvi dəyərlərə zərbə vuran, əxlaqsızlıq təbliğ edən "TikToker"lərə qarşı keçirdiyi əməliyyatın şahidi olduq: "Bu səbəbdən DİN naziri general-polkovnik Vilayət Eyvazova və DİN Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi Elşad müəllimə təşəkkürümü bildirirəm. Cəza olan yerdə islah da var. Gələcəkdə də bu tip neqativ halların qarşısının alınması üçün hüquq mühafizə orqanları hərəkətə keçməlidir. Artıq TikTok istifadəçilərinin əksəriyyəti bütün əxlaqi normaları aşmışlar. Bu belə davam etməməlidir.

Kirli pulların yuyulmasına gəlincə, bu hal qonşu Türkiyədə baş vermişdir. Türkiyədəki "TikToker"lər bəzi iş adamları ilə dırnaqarası sazişlərə girərək, onlara hədiyyə formasında göndərilən pulları nağdlaşdırıb geri qaytarırmışlar. Bu səbəbdən Türkiyənin hüquq mühafizə orqanları əməliyyat keçirərək bu şəxsləri həbs etdilər. Analoji əməlin bizim saxlanılan TikTokerlər tərəfindən də baş verdiyi iddia olunur. Lakin bu iddia araşdırılmaqdadır. Əgər dəlil və subutlar əldə edilərsə, deməli, bu şəxslər yalnız cəmiyyətin əxlaqına deyil, həm də onun cibinə zərər vururlar".

Ramal Əliyev sözlərinə belə davam edib: "Halal qazanc məsələsinə gəlincə, "halal qazanın əmri" bizə İslamın müqəddəs kitabı olan Qurani-Kərimdə Allahın əmridir. Cəmiyyətimizin 90%-dən çoxu özünü İslam dininə mənsub hiss etdiyi üçün Qurani-Kərimdə halal və haram mövzularında kifayət qədər məlumat vardır. Hər kəs Allahdan və axirətdəki hesabdan çəkinib, haram qazancdan uzaq durmalıdır. Haram anlayışı olduqca geniş bir məfhumdur.

Başqasının malını qəsb etməməlisən, qumar oynayıb başqasının puluna sahib çıxmamalısan, ticarətdə saxtakarlıq etməməlisən, məhsulunun maya dəyərini azaltmaq üçün keyfiyyətini düşürməməlisən, oğurluq etməməlisən. Bu sadaladığım əməllər haram olan əməllərin bir qismini təşkil edir. Düşünürəm ki, cəmiyyətimiz hələ də halal və haram qazancı düzgün anlayır, amma sadəcə bunu bilmək kifayət etmir, buna əməl etmək lazımdır".

***Ayşən Vəli***

SƏS
27 dekabr
2024-cü il

# “Elektron nəqliyyatlar ekologiyanın dostudur”



## EKSPERT MÜNASİBƏT BİLDİRDİ

Elektron nəqliyyat vasitələri son illərdə ekoloji problemlərin həlli və texnoloji irəliləyişlər baxımından mühüm əhəmiyyət kəsb edir. Ənənəvi daxili yanma mühərriklərinə alternativ olaraq inkişaf etdirilən bu vasitələr, ətraf mühitin mühafizəsi, enerji səmərəliliyi və iqtisadi qənaət baxımından cəmiyyət üçün yeni imkanlar yaradır. Elektrik avtomobilləri, skuter və velosipedlərdən tutmuş qatar və avtobuslara qədər geniş tətbiq sahəsinə malik olan bu texnologiyalar, nəqliyyatın gələcəyini formalaşdırmaqdadır. Bəs indiki vəziyyətdə bu nəqliyyat vasitələrindən düzgün istifadə olunurmu?

Bu barədə SİA-ya açıqlamasında nəqliyyat eksperti Eldəniz Cəfərov deyib ki, qəzalar yalnız ona görə olmur ki, elektron skuter və velosipedlərdən əyləncə məqsədi ilə istifadə edirlər, qəzalar ona görə baş verir ki insanlar yol hərəkət qaydalarına əməl etmirlər. Velosiped idman, əyləncə növü, nəqliyyat vasitəsi növü kimi də istifadə oluna bilər, burada hər hansı bir qadağa yoxdur. Bakı şəhərində skuterlər və velosipedlər nəqliyyat növü kimi populyar olmayıb, amma indi yavaş-yavaş bu kiçik mühərrikli nəqliyyat vasitələri, həmçinin mühəriksiz velosipedlər kütləvi nəqliyyat vasitəsinə çevrilib. Qəzaların qarşısını almaq üçün bu nəqliyyat növlərini istismar edən vətəndaşlar yol hərəkəti qaydalarına əməl etməlidirlər. Bilərəkdən yol hərəkəti qaydalarına riayət etməyib pozurlar.

Elektron skuter və velosipedləri idarə etmənin də müəyyən şərtləri, qaydaları var, həmin qaydalara uyğun idarə etməlidirlər. Qaydalar yol hərəkəti haqqında qanunda dəyişiklik edilib və orda əlavələr var. Elementar sadə qaydada ondan ibarətdir ki, velosiped, skuter sürücüsü də bilməlidir ki, avtomobil yolunda üstünlük onların deyil. Onlar yolun sağ zolağı ilə hərəkət etməlidirlər. Velosipedçi velosiped olan yolla hərəkət etməlidir olmayanda isə yolun sağ istiqaməti ilə etməlidir. Elektron nəqliyyat vasitələrini skuter, smartkart, həmçinin velosipedi istifadə edəndə mütləq həmin şəxslərin başında dəbilqəsi olmalıdır. Həmin nəqliyyat vasitələrinin önündə və arxasında işığı olmalıdır.”

***Xeyrənsə Piriyeva***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## Qarşılayın - ilk seriyalı hiperkar P72!



Yenidən canlanmış De Tomaso brendi tərəfindən P72 hiperkarının elan edilməsindən beş ildən çox vaxt keçib və indi ilk istehsal nüsxəsi ictimaiyyətə təqdim olunub. SİA-nın məlumatına görə, bu avtomobillərdən cəmi 72 ədəd istehsal olunacaq, hər birinin qiyməti 1,6 milyon avrodan başlayır. İlk yığılmış nüsxənin gövdə panelləri rənglənməmiş karbon lifindən hazırlanmışdır. Markanın zərgərlik sənətindən ilhamlanaraq təsvir etdiyi interyer xüsusilə diqqətəlayiqdir. Oturacaqlar krem dəri ilə üzlənib, dizayner mebellərini xatırladır. Ön panel altı fərdi hazırlanmış mis əlavə ilə bəzədilib. Ötürücü qolu da misdən hazırlanıb.

Hiperkar 750 at gücünə malik 5,0 litrlik V8 mühərriki ilə təchiz edilib. və 900 Nm fırlanma anı. Sürücü - arxa. Şirkət həmçinin daha aqressiv aerodinamikaya və iki mühərrik seçiminə malik olacaq P900-ün trek versiyası üzərində işləyir: Benetton B197 F1 avtomobilindən V12 və ya V10

***Nazlı Almuradova***

# DİQQƏT: Qəhvənin gözlənilməz təhlükəsi açıqlandı



Yatmazdan 12 saat əvvəl yüksək dozada kofein qəbul etmək belə gecə istirahətinin keyfiyyətini azalda bilər. SİA xəbər verir ki, bunu Avstraliya Katolik Universitetinin alimləri müəyyən ediblər. Araşdırmanın nəticələri ”Sleep” jurnalında dərc olunub. Tədqiqatda 18-40 yaş arası 23 kişi iştirak edib. Bütün könüllülər mütəmadi olaraq orta dozada (gündə 300 mq-dan az) kofein istehlak ediblər. Təcrübənin bir hissəsi olaraq, subyektlərdən yatmazdan 12, 8 və 4 saat əvvəl (müxtəlif günlərdə) 100 və 400 mq kofein qəbul etmələri istənilib.

Nəticələr göstərib ki, yüksək dozada kofein (xüsusən də 400 mq) hətta yatmazdan 12 saat əvvəl qəbul edilsə belə, yuxunu poza bilər. Yatmazdan dörd saat əvvəl qəbul edilən 100 mq kofein isə gecə istirahətinə praktiki olaraq heç bir təsir göstərməyib.

Alimlər qeyd ediblər ki, eksperiment iştirakçıları çox vaxt kofeinin yuxuya təsirini hiss etməyiblər, baxmayaraq ki, xüsusi yuxu monitorinq cihazının polisomnoqrafiya məlumatlarında onun keyfiyyətinin pisləşməsi müşahidə olunub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 2700**